## QAFQAZ ZUBRLARI AZƏRBAYCAN TƏBİƏTİNƏ QAYTARILIR

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi tərəfindən birgə həyata keçirilən "Zubrların Azərbaycana reintroduksiyası" proqramı çərçivəsində ölkəyə gətirilmiş zubrların mayın 21-də Şahdağ Milli Parkının İsmayıllı bölməsinə aid olan hissəsində onlar üçün yaradılmış xüsusi əraziyə buraxılması mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi...



Bax səh. 3

## REGİONLARDA TURİZMİN İNKİŞAFI İSTİQAMƏTİNDƏ LAYİHƏLƏR HƏYATA KEÇİRİLİR

Son illərdə ölkəmizdə turizmin inkişafı ilə bağlı genişmiqyaslı işlərin görülməsi, böyükhəcmli layihələrin həyata keçirilməsi, Azərbaycanın ayrı-ayrı bölgələrində müasir tələblərə cavab verən istirahət mərkəzlərinin, hotellərin inşası, yol-nəqliyyat infrastrukturunun yaradılması həm xarici, həm də yerli turistlərin bölgələrimizə marağını artırıb. Bunun nəticəsində ötən il Azərbaycana dünyanın müxtəlif ölkələrindən 2,8 milyondan çox turist gəlib, bu il turistlərin sayının daha da artması gözlənilir...




Bax səh. 8



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 23 may 2019-cu il, cümə axşamı / № 093 (5468). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak edib





## Prezidentin iş günü

Çin Xalq Respublikasının Sədri Si Cinpin Prezident İlham Əliyevə Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

* * *

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

* * *

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Prezident İlham Əliyevə Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

* * *

Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov Prezident İlham Əliyevə Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

* * *

Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti vəzifəsini icra edən Əbdülqadir bin Saleh Prezident İlham Əliyevə Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

## Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, mayın 22-də Şirvan şəhəri, Daşkəsən, Füzuli, Xızı və Yardımlı rayonlarında sakinlərlə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlətimizin başçısının da dediyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlarda imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Həmçinin görüşlərdə məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



## ADA UNİVERSİTETİ VƏ RUSİYA ELMLƏR AKADEMİYASI GƏNC ALİMLƏRİN YETİŞDİRİLMƏSİNDƏ ƏMƏKDAŞLIQ ETMƏYİ PLANLAŞDIRIR

ADA Universiteti və Rusiya Elmlər Akademiyası gənc alimlərin yetişdirilməsində əməkdaşlıq etməyi planlaşdırır. Bu məsələ mayın 22-də Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayevin...

Bax səh. 3

## RADİKALLARIN HEÇ BİR NİYYƏTİ BAŞ TUTMAYACAQ

...Xaricdə yaşayan bəzi mühacir azərbaycanlıların davranışları çoxlu suallar doğurur. Onlar bəzən həddindən artıq radikal mövqe seçirlər. Və heç bir halda özlərini müxalifət kimi aparmırlar. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, hakimiyyətə qarşı müxalifət olmaq olar. Lakin öz dövlətinə və xalqına qarşı müxalifətdə dayanmaq olmaz. Həm də özünü müxalifətçi kimi təqdim edib söyüş söymək, insanları təhqir etmək, şərəf və ləyaqətini təhqir etmək yolverilməzdir. Bu cür davranışlar milli mentalitetimizə də ziddir. Düşünürəm ki, mühacir həyatı yaşayan azərbaycanlılar obyektiv mövqe ortaya qoymalıdır. Onlar hansısa məsələ ilə bağlı sağlam tənqid edib öz təkliflərini verə bilərlər. Amma Azərbaycan həqiqətlərini təhrif etmək, Avropa ictimai fikrində Azərbaycan haqqında mənfi fikir formalaşdırmaq, ölkəmizin qazandığı uğurlardan kədərlənmək qəbuledilməzdir. Təbii ki, bu məsələdə müəyyən müsbət tendensiyalar var. Xaricdəki radikal mövqedə dayanan bəzi azərbaycanlıların davranışında obyektivliyə yaxın mövqe yaranması diqqətdən yayınmır...

Bax səh. 5



## AZƏRBAYCAN TƏBİİ QAZINI BOLQARISTANA ÇATDIRACAQ YUNANISTAN-BOLQARISTAN İNTERKONNEKTORUNUN İNŞASINA BAŞLANILIB

Mayın 22-də Bolqarıstanın Kirkovo bölgəsində Azərbaycan təbii qazını bu ölkəyə nəql edəcək Yunanıstan-Bolqarıstan İnterkonnektorunun...

Bax səh. 3

### Azərbaycanla Böyük Britaniyanın ticarət dövriyyəsi birinci rübdə 90 faizədək artıb

Londonda Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə...



Bax səh. 3

### Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib

Mayın 22-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin...



Bax səh. 4

### *Eldar İbrahimov:* Azərbaycan ərzaq təhlükəsizliyinə ölkənin milli təhlükəsizliyinin vacib bir komponenti kimi daim böyük önəm verir

"Kənd təsərrüfatının geniş potensialından daha səmərəli istifadə etmək məqsədilə aqrar sektorda...



Bax səh. 5

### KİVDF-nin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə keçirdiyi yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb

Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun...



Bax səh. 4

# Prezident İlham Əliyev Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 22-də Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verilib.

Prezident İlham Əliyevin birbaşa göstərişlərinə uyğun olaraq Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən keçmiş "Sovetski" adlanan ərazidə abadlıq və yenidənqurma işlərinə 2013-cü ilin noyabr ayında start verilib və işlər mərhələlərlə icra olunmaqdadır.











Dövlətimizin başçısı və birinci xanım buradan paytaxtın mənzərəsini seyr ediblər.

Ərazi orijinal layihə əsasında yüksək səviyyədə abadlaşdırılıb, burada müasir tələblərə uyğun yeni istirahət parkı salınıb.

Avstriyanın məşhur memarı Yans Hoffmanın layihələndirdiyi Mərkəzi Parkın ən mühüm xüsusiyyəti Nəriman Nərimanov prospektindən Heydər Əliyev Sarayınadək olan ərazidə piyadalara yol keçmədən maneəsiz hərəkət imkanının yaradılmasıdır. Layihənin əsas məqsədi şəhərin simasını daha da gözəlləşdirmək, paytaxt sakinlərinin və turistlərin mədəni istirahətinə xidmət etməkdir.

Dövlətimizin başçısına Hüseyn Cavid parkı-Nərimanov prospekti ilə bağlantı yolu və Cavanşir yol ötürücüsünün yerində inşa olunacaq yeni eyni səviyyəli yol qovşağının tikintisi layihəsi barədə də məlumat verilib.

Mərkəzi Parkın ərazisində 2 kafe də fəaliyyət göstərəcək. Bu istirahət məkanında insanların rahat hərəkətini təmin etmək məqsədilə yeraltı və yerüstü piyada keçidləri istifadəyə verilib. Bu keçidlər əsasən avtomobillərin intensiv hərəkət etdiyi Nəriman Nərimanov, Mirzəağa Əliyev və Abdulla Şaiq küçələrinin kəsişmələrində inşa olunub. Ərazidə bütün yaş qruplarından olan insanlar üçün 7 istirahət və oyun meydançası yaradılıb. Ərazidə böyüklər üçün şahmat, nərd və idman qurğuları, balacalar üçün yelləncəklər, futbol meydançası salınıb.

Görülən işlər çərçivəsində Təzəpir məscidinin qarşısındakı bağdan məscidə əlavə giriş imkanı da olacaq. Həmçinin Füzuli meydanı ətrafındakı ərazi yenidən qurulub, burada əhalinin təhlükəsiz hərəkəti üçün piyada keçidinə yeni giriş yaradılıb. Parkın ərazisində ümumilikdə 9 fəvvarə tikilib. İstirahət parkında müasir işıqlandırma sistemi və infrastrukturun bir mərkəzdən idarə olunması üçün təhlükəsizlik kameraları quraşdırılıb.

Ərazisi 20 hektar olan parkın 14 hektarında yaşıllıq salınıb. Burada 2100-dən çox 19 növ ağac və 137 mindən artıq gül və kol bitkiləri əkilib. Parkın yaşıllaşdırma işləri aparılarkən flora və iqlim mühiti təhlil edilərək əraziyə uyğun bitki və ağaclara üstünlük verilib. Mərkəzi Parkın yaşıllaşdırma konsepsiyasında ilin bütün fəsilləri nəzərə alınıb. Parkda yaşıllıqları suvarmaq üçün müasir sistemlərə uyğun olaraq 6,5 kilometrdən çox sahədə damcılama üsulu tətbiq edilib. Bundan başqa, Mərkəzi Parkın ərazisində drenaj xətlər də çəkilib. Ümumilikdə Mərkəzi Parkın inşası ilə Füzuli meydanının ətraf ərazilərində Bakının "ağciyəri" hesab olunan yeni yaşıllıq zolağı salınmaqla Prezident İlham Əliyevin "Bakı şəhərinin Yasamal rayonu ərazisində Füzuli meydanının ətrafındakı yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq işlərinin aparılması ilə bağlı bəzi tədbirlər haqqında" 2016-cı il 4 avqust tarixli, "Təzəpir məscidi kompleksinin ətraf ərazisinin abadlaşdırılması ilə əlaqədar tədbirlər haqqında" 2016-cı il 5 avqust tarixli sərəncamlarının icrası olaraq, "Təzəpir məscidi kompleksini ziyarət edənlər üçün parklama imkanlarının yaradılması işləri" layihəsinin II mərhələsi tam yekunlaşdırılıb, vətəndaşlarımızın istirahəti və dincəlməsi üçün istifadəyə verilib.

Ərazinin abadlaşdırılması zamanı burada XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakıya Şollar su kəmərinin çəkilişi ilə əlaqədar şəhərin müxtəlif məhəllələrində tikilən və yerli sakinlər arasında "Qüllə" kimi tanınan su qüllələri və quyuları aşkarlanaraq bərpa edilib. Həmin su quyularından bu istirahət məkanında aparılan suvarma işlərində istifadə olunur.

Parkın ərazisində Mirzəağa Əliyev küçəsi və Təzəpir məscidi arasında müasir standartlara cavab verən 347 yerlik yeraltı avtomobil dayanacağı tikilib. Dayanacaq təbii havalandırma, müasir işıqlandırma, təhlükəsizlik kameraları ilə təchiz edilib.

Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artıb. Bu işlər paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması, paytaxtın qədim tarixi memarlıq nümunələrinin bərpası və yeni, müasir binaların tikilib istifadəyə verilməsi ilə müşayiət olunur. Bütün bunlar Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Bunu istər paytaxt sakinləri, istərsə də şəhərimizin qonaqları dəfələrlə vurğulayırlar. Yeni park, istirahət məkanı və guşələrinin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması bu məsələdə mühüm rola malikdir. Yeni salınan bu park da Bakının simasının daha da gözəlləşməsi baxımından mühüm rol oynayır.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı müvafiq tapşırıqlarını verib.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli abidəsinin önündə sakinlərlə görüşüb söhbət ediblər.

Dövlətimizin başçısı və xanımı vətəndaşların problemləri ilə tanış olublar. Bildirilib ki, sakinlərin müraciət etdiyi problemlərlə bağlı məsələlər yaxın zamanda operativ şəkildə həll olunacaq.

Sonda xatirə şəkli çəkdirilib.

# Qafqaz zubrları Azərbaycan təbiətinə qaytarılır



IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi tərəfindən birgə həyata keçirilən "Zubrların Azərbaycana reintroduksiyası" proqramı çərçivəsində ölkəyə gətirilmiş zubrların mayın 21-də Şahdağ Milli Parkının İsmayıllı bölməsinə aid olan hissəsində onlar üçün yaradılmış xüsusi əraziyə buraxılması mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və digər qonaqlar iştirak ediblər.

Vaxtilə ölkəmizdə nəsli kəsilmiş vəhşi öküz - Qafqaz zubru növündən olan 8 baş heyvan mayın 16-da Fransa və Belçika zooparklarından Azərbaycana gətirilib. Onlar üçün Şahdağ Milli Parkının İsmayıllı bölməsində xüsusi ərazi yaradılıb. Heyvanlar bir müddət bu ərazidə adaptasiya dövrü keçdikdən sonra Şahdağ Milli Parkına buraxılacaq. Əraziyə bu il daha 12 baş zubrun gətirilməsi də nəzərdə tutulur.



Yerli sakinlər və məktəblilər də zubrlara xüsusi maraq göstərərək tədbirə qoşulub, nəsli tükənmək təhlükəsi altında olan növlərin bərpası istiqamətində aparılan işlərlə tanış olub və öz dəstəklərini nümayiş etdiriblər. Eyni zamanda, tədbirə qatılan yerli gənc təbiətsevərlərə zubrların Azərbaycanda tarixi, onların təbiətdə rolu və mühafizəsi haqqında mühazirələr təşkil olunub.

Zubrlar vaxtilə Avrasiyada çox geniş arealda yayılsa da, ötən əsrin əvvəllərində vəhşi təbiətdə nəsli, demək olar ki, kəsilib. Qafqaz dağlarında sonuncu zubr 1927-ci ildə öldürülüb. Hazırda dünyada mövcud olan zubrların böyük əksəriyyəti zooparklarda artırılıb və bu yolla növün bərpasına yönəlmiş səylər davam etdirilir. Vəhşi öküzlər güclü, cüssəli heyvanlardır və qədim zamanlardan insanlar tərəfindən güc rəmzi kimi qəbul olunub.

IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan nümayəndəliyi ilə birgə ölkəmizdə nadir növlər olan Qafqaz bəbiri, ceyran və zubrların populyasiyasının bərpası istiqamətində uğurlu layihələr icra edir.

Zubrların Azərbaycanda biomüxtəlifliyinin daha da zənginləşdirilməsi və meşə ekosistemlərinin inkişafında potensial rolunu nəzərə alaraq layihənin təşkilatçıları ölkəmizin şimal bölgələrində yaşayan əhalini və ümumiyyətlə respublika ictimaiyyətini Qafqaz zubrlarının təbiətimizə qaytarılması, onların mühafizəsi və qanunsuz ovlanmasının qarşısının alınması işinə dəstək olmağa çağırırlar.

# Azərbaycanla Böyük Britaniyanın ticarət dövriyyəsi birinci rübdə 90 faizədək artıb

*Londonda Azərbaycan-Böyük Britaniya Hökumətlərarası Komissiyanın 3-cü iclası keçirilib*

Londonda Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 3-cü iclası keçirilib.



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Pərviz Şahbazovun və Böyük Britaniyanın ticarət siyasəti üzrə dövlət naziri Corc Hollinqberinin həmsədrliyi ilə keçirilmiş iclasda hər iki ölkənin komissiyada təmsil olunan müvafiq qurumlarının rəsmiləri iştirak ediblər.

İclasda iqtisadiyyat, ticarət, enerji, vergi və gömrük, kənd təsərrüfatı, qida təhlükəsizliyi, rabitə və yüksək texnologiyalar, nəqliyyat, kosmik, elektron hökumət və rəqəmsal dövlət xidmətləri, təhsil, səhiyyə, turizm, mədəniyyət, gənclər və idman, ekologiya, hərbi və təhlükəsizlik sahələrində mövcud əməkdaşlıq və əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə olunub.

İclasda çıxış edən Hökumətlərarası Komissiyanın həmsədri, energetika naziri Pərviz Şahbazov Azərbaycan və Böyük Britaniya arasında iqtisadi əlaqələr barədə məlumat verərək ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın olduğunu vurğulayıb. Bildirib ki, iki ölkə arasında ötən il ticarət dövriyyəsi 61,1 faiz, cari ilin 3 ayı ərzində isə 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 89,6 faiz artıb. Hazırda Azərbaycanda 437 Britaniya sərmayəli şirkət fəaliyyət göstərir və bu ölkə tərəfindən Azərbaycan iqtisadiyyatına təxminən 28 milyard ABŞ dollaradək investisiya yatırılıb.

P.Şahbazov deyib: **"Birgə Hökumətlərarası Komissiyanın budəfəki iclası bütün sahələr üzrə potensialı dəyərləndirməyə imkan yaradacaq. Yeni qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri üçün yol xəritəsi müəyyənləşdirəcək. Bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf siyasəti həyata keçirilir. Bu kurs əməkdaşlığımızın qeyri-neft sektorunda daha da inkişafı üçün zəmin yaradır".**

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Ticarət Siyasəti üzrə dövlət naziri C.Hollinqberi isə ölkəsinin Azərbaycanla çoxşaxəli əlaqələrinin inkişafında maraqlı olduğunu, bu məqsədlə birgə fəaliyyətin mühüm rol oynayacağını söyləyib.

İclasda ölkələrimiz arasında əməkdaşlıqda neft-qaz sektorunun mühüm rolundan bəhs edilib. Neft-qaz sektorunda hasilat xərclərinin azaldılması, karbohidrogenlərin məhsuldarlığının artırılması, yeni texnologiyaların inkişaf etdirilməsi, eləcə də bərpaolunan enerji, enerji səmərəliliyi enerji əməkdaşlığının gələcək istiqamətləri kimi müəyyənləşdirilib. Ticarət və investisiya üçün daha yaxşı biznes mühitinin yaradılmasında əməkdaşlıq maraqları ifadə edilib. Sumqayıt Kimya və Pirallahı Sənaye Parkları, Dövlət-Özəl Tərəfdaşlığı layihələri əməkdaşlıq üçün yeni imkanlar kimi vurğulanaraq kənd təsərrüfatı, turizm və qeyri-neft sektorunun digər sahələrində də Böyük Britaniya şirkətlərinin iştirakının vacibliyi qeyd olunub.

Bildirilib ki, Birləşmiş Krallıq kənd təsərrüfatı sahəsində təcrübəsini, məhsulların istehsalında texnologiyasını paylaşa, prioritet istiqamətlər üzrə birgə layihələr həyata keçirilə bilər. Müvafiq qurumlar arasında anlaşma memorandumunun imzalanması isə prosesə töhfə verər. Turist və istirahət zonalarının yaradılması və inkişafı üzrə təcrübə mübadiləsinin aparılması, sərgi və biznes-forumlar çərçivəsində əməkdaşlığın davam etdirilməsi vacibdir. Təhsil sahəsində isə hər iki ölkənin ali məktəbləri arasında əlaqələrin genişləndirilməsi, ingilis dilinin tədrisinin təkmilləşdirilməsi, peşə təhsili və digər istiqamətlər üzrə imkanlar nəzərdən keçirilməlidir. Yüksək texnologiyalar, rəqəmsal dövlət xidmətləri, kosmik sahə, nəqliyyat, qida təhlükəsizliyi, həmçinin ekologiya sahələrində əməkdaşlıq ikitərəfli əlaqələrin inkişafı baxımından əhəmiyyətli olacaq istiqamətlərdəndir.

İclasın sonunda Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 3-cü iclasının yekunlarına dair Protokol imzalanıb. Sənədi Komissiyanın həmsədrləri - Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Böyük Britaniyanın Ticarət Siyasəti üzrə dövlət naziri Corc Hollinqberi imzalayıb. Komissiyanın 4-cü iclasının 2020-ci ildə Bakıda keçirilməsi razılaşdırılıb.

# ADA Universiteti və Rusiya Elmlər Akademiyası gənc alimlərin yetişdirilməsində əməkdaşlıq etməyi planlaşdırır



ADA Universiteti və Rusiya Elmlər Akademiyası gənc alimlərin yetişdirilməsində əməkdaşlıq etməyi planlaşdırır.

Bu məsələ mayın 22-də Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayevin Rusiya Elmlər Akademiyasının prezidenti, akademik Aleksandr Sergeyevlə görüşündə müzakirə edilib.

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, tərəflər, xüsusilə informasiya texnologiyalarının və tətbiqi elmlərin inkişafı məqsədilə mübadilə proqramlarını nəzərdən keçirəcəklər.

Görüşdə qarşılıqlı maraq doğuran sahə kimi, həmçinin Xəzər hövzəsi üzrə elmi tədqiqatların aparılması müzakirə olunub.

Akademik Aleksandr Sergeyevin başçılıq etdiyi nümayəndə heyəti ADA Universitetində olarkən tədris mərkəzi ilə də tanış olub. Qonaqlara universitetin tələbə və müəllim heyəti, burada yaradılan beynəlmiləl mühit və Rusiyanın bir neçə aparıcı universiteti daxil olmaqla, 70-ə yaxın xarici ali təhsil ocağı ilə qurulan elmi əməkdaşlıq barədə məlumat verilib. Akademik Aleksandr Sergeyev qarşıdan gələn "Məzun günü" münasibətilə universitet rəhbərliyini təbrik edib və ADA yetirmələrinə uğurlar arzulayıb.

# Azərbaycan təbii qazını Bolqarıstana çatdıracaq Yunanıstan-Bolqarıstan İnterkonnektorunun inşasına başlanılıb

*Təməlqoyma mərasimində Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov da iştirak edib*









Mayın 22-də Bolqarıstanın Kirkovo bölgəsində Azərbaycan təbii qazını bu ölkəyə nəql edəcək Yunanıstan-Bolqarıstan İnterkonnektorunun (Interconnector Greece-Bulgaria (IGB) təməlqoyma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubovla yanaşı, Bolqarıstanın Baş naziri Boyko Borisov, Yunanıstan Baş naziri Aleksis Tsipras, hər iki ölkənin enerji nazirləri, Avropa Komissiyası və Avropa İnvestisiya Bankının (EIB) yüksək səviyyəli rəsmiləri, eləcə də müxtəlif ölkələrdən 150-dən çox qonaq iştirak edib.

Baş nazirin birinci müavini Yaqub Eyyubov Azərbaycan, Bolqarıstan və Yunanıstanın təkcə enerji sektorunda deyil, digər sahələrdə də uğurlu və davamlı əməkdaşlığının vacibliyini vurğulayıb.

Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç ünvanladığı videomüraciətdə deyib: **"IGB-nin həyata keçirilməsi bölgənin qaz təchizatı təhlükəsizliyini artıracaq və Avropanın enerji infrastrukturuna töhfə verəcək".**

Mərasimdə bildirilib ki, Yunanıstan-Bolqarıstan İnterkonnektoru digər mühüm layihələrin - Cənub Qaz Dəhlizi, TANAP və TAP-ın birləşdirici funksiyasını daşımaqla geniş enerji strategiyası və Avropanın prioritetlərini müəyyən edir.

Yunanıstan-Bolqarıstan İnterkonnektorunun operatoru olan "ICGB AD" şirkəti boru kəmərinin inşasını həyata keçirəcək.

Xatırladaq ki, 2013-cü ilin sentyabrında "Bulgargaz EAD" "Şahdəniz-2" çərçivəsində ildə 1 milyard kubmetr qazın alınması ilə bağlı 25 illik saziş imzalayıb. Azərbaycan təbii qazı "Trans-Adriatik" (TAP) qaz boru kəməri ilə 2020-ci ildə Avropaya çatdırılacaq. Həmin il Yunanıstan-Bolqarıstan qaz şəbəkələrinin bir-biri ilə əlaqələndirilməsi planlaşdırılır. Bolqarıstan interkonnektor ilə 2020-ci ildən etibarən ildə 1 milyard kubmetr Azərbaycan qazı alacaq. Azərbaycan qazı Bolqarıstanın istehlakının dörddəbir hissəsini ödəyəcək.

IGB layihəsinin dəyəri təxminən 220 milyon avro qiymətləndirilir. Boru kəməri Şimal-Şərqi Yunanıstanın Komotini və Bolqarıstanın cənubundakı Stara Zagora bölgələrini bir-birinə birləşdirəcək. IGB qaz boru kəmərinin Komoti və Stara Zagorada çıxış nöqtəsi olacaq, Yunanıstan və Bolqarıstan milli təbii qaz sistemləri arasında birbaşa əlaqə yaradılacaq. 182 kilometrlik IGB boru kəməri Yunanıstandan Bolqarıstana ildə təxminən 3 milyard kubmetr təbii qaz nəqli qabiliyyətinə malik olacaq və gələcək bazar tələbatına əsasən bu həcmin illik 5 milyard kubmetrə çatdırılması imkanı var.

# Hesablama Palatası ilə Filippin Audit Komissiyasının əməkdaşlığının perspektivləri müzakirə olunub

Hesablama Palatası ilə Filippin Audit Komissiyası arasında əməkdaşlığın perspektivləri müzakirə edilib.



Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Filippin Audit Komissiyasının və INTOSAI (Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı) Dövlət Borcu üzrə İşçi Qrupunun sədri Maykl Aquinaldonun rəhbərlik etdiyi nümayəndə heyəti mayın 22-də Hesablama Palatasının sədri Vüqar Gülməmmədovla görüşüb.

Nümayəndə heyəti Hesablama Palatasının ev sahibliyi ilə mayın 23-25-də keçiriləcək INTOSAI-ın Dövlət Borcu üzrə İşçi Qrupunun toplantısında iştirak etmək üçün Bakıya səfərə gəlib.

Görüşdə M.Aquinaldo iki ölkənin ali audit qurumları arasında əməkdaşlığı yüksək qiymətləndirib. INTOSAI-ın üzv ali audit qurumları üçün həyata keçirdiyi tədbirlərin əhəmiyyəti vurğulanıb, tədbirin təşkilatın özü və üzv dövlətlər üçün olan əhəmiyyəti diqqətə çatdırılıb.

Bundan başqa, hər iki ölkənin kənar dövlət maliyyə nəzarəti orqanı olaraq qarşıda duran vəzifələrin yerinə yetirilməsi istiqamətində birgə əməkdaşlığının perspektivləri müzakirə edilib.

# UEFA İcraiyyə Komitəsinin Bakıda keçiriləcək iclasının gündəliyi açıqlanıb

Mayın 29-da Bakıda keçiriləcək UEFA İcraiyyə Komitəsi iclasının gündəliyi açıqlanıb.

AZƏRTAC AFFA-ya istinadla xəbər verir ki, İcraiyyə Komitəsi gündəliyinə 2021-ci ildə UEFA qadınlararası Çempionlar Liqasının ev sahibinin müəyyənləşdirilməsi; müxtəlif yarışların və texniki qaydaların təsdiqi; futzal üzrə UEFA Avropa çempionatı 2020/2022; 2019/2020-ci illər UEFA Avropa U-17 və U-19 çempionatları; 2019/2020-ci illər UEFA Avropa qadınlararası U-17 və U-19 çempionatları; UEFA İntizam qaydaları (2019 buraxılışı); UEFA Təhlükəsizlik qaydaları (2019 buraxılışı); UEFA Klubların maliyyə nəzarəti orqanının prosedur qaydaları (2019 buraxılışı); turnirlərin əsasnamələri - oyun qaydalarına adaptasiya; UEFA Avropa gənclər çempionatlarının formatı; Reynhart Qrindelin UEFA vitse-prezidenti və FIFA İcraiyyə Komitəsi üzvlüyündən azad olunması; UEFA Grassroots mükafatı 2019 daxildir.

Xatırladaq ki, UEFA İcraiyyə Komitəsinin iclası Bakıda tarixdə ilk dəfə təşkil olunacaq.

# Akademik Akif Əlizadə: Rusiya Elmlər Akademiyası ilə saziş Azərbaycan elmi üçün prioritet istiqamətlər açır



Rusiya Elmlər Akademiyası (REA) ilə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasında imzalanan elmi-texniki əməkdaşlıq haqqında saziş gələcəkdə REA ilə texniki və humanitar istiqamətlərdə əlaqələri genişləndirmək və gücləndirmək məqsədini daşıyır.

AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə müsahibəsində AMEA-nın prezidenti, akademik Akif Əlizadə söyləyib. O deyib: **"REA-nın prezidentinin AMEA-ya gəlişi bizim bu elm ocağı ilə 20 il öncə imzaladığımız müqaviləni təkmilləşdirərək, dünya elminin tələblərini əks etdirən yeni sazişə çevirməyə imkan verdi".**

Akif Əlizadə iki elmi qurum arasında imzalanan müqavilənin Azərbaycan elmi üçün prioritet istiqamətlər açdığını vurğulayıb. Akademik birinci istiqamətin Xəzər dənizi ilə bağlı problemlərin öyrənilməsi olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, buraya Xəzərin bioloji müxtəlifliyi, geologiyası, geodinamikası, dib çöküntülərinin öyrənilməsi, eləcə də rusiyalı alimlərlə birgə Xəzər dənizində arxeoloji axtarışlarla əlaqədar kompleks multidissiplinar tədqiqatların aparılması daxildir.

AMEA prezidenti bildirib ki, saziş çərçivəsində, həmçinin Qafqazın tarixi, burada insanların məskunlaşması, miqrasiyası və digər istiqamətlərdə birgə tədqiqatların həyata keçirilməsi nəzərdə tutulur.

Akademik Akif Əlizadə dənizaltı arxeoloji, sahil arxeoloji, eləcə də arxeogenetik tədqiqatların müasir dövrdə aktuallıq təşkil etdiyini bildirib, bu kimi elmi problemlərin də birgə araşdırılmasının qarşıda duran əsas hədəflərdən olduğunu deyib.

Akif Əlizadə AMEA ilə REA arasında qurulan elmi əlaqələrin iki ölkənin rəhbərliyi tərəfindən dəstəkləndiyini söyləyib, gələcəkdə daha uğurlu elmi nəticələrin əldə ediləcəyinə əminliyini bildirib.

# Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib




Mayın 22-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin birinci müavini, komitənin sədri Ziyafət Əsgərov gündəlikdəki məsələlər barədə məlumat verib. Bildirilib ki, gündəliyə üç məsələ daxildir.

Əvvəlcə Ziyafət Əsgərov "Terrorçuluğa qarşı mübarizə haqqında" və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, dəyişikliklər qanunvericiliyin uyğunlaşdırılması xarakteri daşıyır. Azərbaycan hər zaman terrora qarşı mübarizənin önündə gedən dövlət olduğu üçün ölkəmizdə müvafiq hüquqi bazanın möhkəmləndirilməsinə ciddi diqqət yetirilir.

Sonra "Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" qanun layihəsi təqdim olunub. Qeyd edilib ki, Saziş 2019-cu il aprelin 7-də Ər-Riyad şəhərində imzalanıb. Bu Saziş ölkələrimiz arasında hüquqi bazanın genişləndirilməsinə xidmət edir.

"Fövqəladə vəziyyət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edən Z.Əsgərov deyib ki, dəyişikliklər redaktə xarakterlidir.

Müzakirələrdən sonra qanun layihələri plenar iclasa tövsiyə olunub.

# KİVDF-nin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə keçirdiyi yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb



Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə keçirdiyi "Prezident İlham Əliyevin sosial islahatlar paketi: əhalinin rifahı naminə yeni inqilabi addımlar" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıblar.

AZƏRTAC xəbər verir ki, tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, fondun icraçı direktoru Vüqar Səfərli, nazirliyin rəhbər vəzifəli şəxsləri, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və qalib jurnalistlər iştirak ediblər.

Tədbir iştirakçılarını salamlayan Sahil Babayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu sosial islahatlar proqramının yeni nəticələri kimi əhalinin rifahının yaxşılaşdırılması istiqamətində inqilabi addımların atıldığını vurğulayıb. Nazir bildirib ki, cari ilin ötən dövründə minimum əməkhaqqının orta hesabla 40 faiz artırılması 600 min, pensiyanın minimum məbləğinin orta hesabla 40 faiz artırılması 233 min, sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırılması 600 minədək vətəndaşı əhatə edib. Həmçinin 500 mindən çox məcburi köçkünün müavinəti 50 faiz artırılıb, 110 minədək tələbənin təqaüdlərində əhəmiyyətli artımlar edilib. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 fevral tarixli Fərmanı isə 800 mindən çox vətəndaşın problemli kreditlərinin həllinə, bununla onların sosial vəziyyətinin yaxşılaşmasına imkan verib. Bu və digər sosial əhəmiyyətə malik tədbirlər ümumilikdə 3 milyon insanın rifahına mühüm dəstək olub: **"Prezident cənab İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin və ilk "DOST" mərkəzinin inzibati binasının açılış mərasimindəki çıxışı zamanı bu istiqamətdə aparılan işlərin davamlı xarakter daşıdığını, minimum əməkhaqqının, minimum pensiyanın artırılmasının gündəlikdə olduğunu bir daha vurğulayıb".**

Nazir, həmçinin əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə idarəçilik və əhaliyə xidmətlərin innovativ həllərin tətbiqi üzərində qurulması istiqamətində köklü islahatların aparıldığını qeyd edib. O, pensiya təyinatından başlayaraq dövlət sosial xidmətlərinin proaktiv formada təşkili işlərinə başlandıldığını, bu işlərin məcrasının genişləndiyini, yaradılan DOST Agentliyinin və ilk "DOST" mərkəzinin ölkəmizin sosial sahədə yeni bir uğurlu təcrübəsi olduğunu, Bakı və ölkəmizin bölgələri üzrə 31 "DOST" mərkəzinin qurulmasının nəzərdə tutulduğunu deyib.

Sahil Babayev onu da bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 2 avqust tarixli Sərəncamı ilə şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün əlavə olaraq 20 milyon manat vəsaitin ayrılması nəticəsində 2018-ci ildə həmin kateqoriyalardan olan insanlara nəzərdə tutulduğundan (207 mənzil) 3 dəfə çox - 626 mənzilin təqdim edilməsinə səbəb olub. Nazir cari ildə bu kateqoriyadan olan 800-dək vətəndaşın dövlət hesabına mənzillə təmin olunacağını diqqətə çatdırıb.

Qeyri-rəsmi məşğulluqla mübarizə sahəsində tədbirlərdən söz açan Sahil Babayev məqsədyönlü stimullaşdırıcı tədbirlər nəticəsində cari ilin ötən dövründə əmək müqaviləsi ilə işləyənlərin sayının 91 min nəfərə yaxın artdığını deyib.

Çıxışını davam etdirən Sahil Babayev bildirib ki, bu gün nəticələri açıqlanan müsabiqə də ölkədə sosial inkişaf sahəsində əldə olunan bu irəliləyişlərin, islahatların uğurlu nəticələri barədə geniş ictimai məlumatlandırmanın təmin olunmasında peşəkar jurnalist əməyinin stimullaşdırılmasına xidmət edib. Ümumilikdə müvafiq fəaliyyət sahələrində aparılan islahatlar, görülən işlər barədə cəmiyyətin ətraflı məlumatlandırılmasında media ilə fəal əməkdaşlıq qurulub.

Aidiyyəti mövzularda ictimai məlumatlandırmanın genişləndirilməsi, jurnalist peşəkarlığının artırılması, maraq və əməyinin stimullaşdırılması üçün fondla əməkdaşlıq şəraitində fərdi jurnalist yazıları müsabiqələrinin təşkili də diqqətdə saxlanılır: **"Müsbət haldır ki, KİV nümayəndələri bu müsabiqələrdə fəal iştirak edirlər. Qarşıdakı dövrdə də fondla birgə belə müsabiqələrin keçirilməsi davam etdiriləcək".**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərli tədbir iştirakçılarını salamlayaraq qısa müddətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə sayca üçüncü fərdi jurnalist yazıları müsabiqəsinin təşkilini nazirliyin fəal və məhsuldar fəaliyyəti, habelə mediaya açıq qurum olması ilə əlaqələndirib. V.Səfərli xüsusi vurğulayıb ki, nazirlik son aylarda fəaliyyətini tamamilə yeni, çevik və şəffaf mexanizmlər üzərində quraraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial islahatların, bu məqsədlə imzalanmış Fərman və sərəncamların icrasında yaxından iştirak edir.

V.Səfərli qeyd edib ki, nazirliyin həyata keçirdiyi islahatların ictimaiyyətə dolğun və obyektiv şəkildə çatdırılmasında medianın rolu və xidmətləri müstəsnadır. İcraçı direktor, bu baxımdan keçirilən birgə müsabiqələrin əhəmiyyətini xüsusi vurğulayıb. V.Səfərli 2019-cu il aprelin 3-dən mayın 1-dək davam edən fərdi jurnalist yazıları müsabiqəsinə 20 KİV-dən 31 yazının təqdim olunduğunu, yazıların fondun və nazirliyin ekspertləri tərəfindən qiymətləndirildiyini bildirib. İcraçı direktor müsabiqənin yekunlarına əsasən, 6 nəfərin əsas, 5 nəfərin həvəsləndirici mükafatlara layiq görüldüyünü diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın sədri Umud Mirzəyev, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev nazirliklə media arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edən belə intensiv görüşlərin və birgə yazı müsabiqələrinin əhəmiyyətindən söz açıblar.

Sonra müsabiqənin qaliblərinə diplom və mükafatlar təqdim olunub.

Tədbiri yekunlaşdıran nazir Sahil Babayev media ilə əlaqələrinin inkişafına verdiyi töhfəyə görə fondun rəhbərliyinə, eləcə də müsabiqədə iştirak edən jurnalistlərə təşəkkürünü bildirərək belə müştərək layihələrin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb.

# Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir



Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilati, çoxsaylı prokurorluq əməkdaşlarının fərdi üzvü olduğu və dünya prokurorlarını eyni qurumda birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP) ilə əməkdaşlıq uğurla davam etdirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Prokurorluğu ilə qurulmuş sıx əməkdaşlıq məsələlərinin inkişaf perspektivlərinin müzakirəsi məqsədilə IAP-ın icraçı direktoru xanım Yanne Holst baş prokuror Zakir Qaralovun dəvəti ilə ölkəmizə səfər edib.

Səfər zamanı Yanne Holst Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında Assosiasiyaya fərdi üzv qəbul edilmiş prokurorluğun gənc əməkdaşları ilə görüşüb.

Tədbirdə baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi, Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti Kamran Əliyev BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusa malik olan və sıralarında 100-dən çox dövləti birləşdirən Assosiasiya ilə Azərbaycan Respublikasının prokurorluq orqanları arasında səmərəli əməkdaşlığın dinamik inkişaf etdiyini bildirib, ölkəmizin qurumun fəaliyyətinə verdiyi töhfələri və göstərdiyi dəstəyi xüsusi vurğulayıb.

Assosiasiyanın yeni üzvləri ilə görüşdə çıxış edən Yanne Holst təmsil etdiyi qurumun fəaliyyət istiqamətləri və iş prinsipləri barədə məlumat verib. O, gənc əməkdaşlara xidməti fəaliyyətləri zamanı təşkilatın imkanlarından faydalanmağın yollarını izah edib, onların suallarını cavablandırıb.

Sonda Assosiasiyaya qəbul edilmiş yeni üzvlərə qurumun üzvlük vəsiqələri təqdim olunub.

# Gəncədə "Gənclərin Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda konfrans keçirilib








Yeni Azərbaycan Partiyasının (YAP) və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Gəncə şəhər Heydər Əliyev Mərkəzində "Gənclərin Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda konfrans keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, BMT-nin elan etdiyi 17 Dayanıqlı İnkişaf Məqsədinin (DİM) təmin olunması istiqamətində görülən işlərə töhfə vermək məqsədi daşıyan konfransın iştirakçıları əvvəlcə müasir, müstəqil Azərbaycanın qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Konfrans Dövlət himninin səsləndirilməsi ilə işə başlayıb.

Bildirilib ki, Azərbaycanda inkişafın dayanıqlığının təmin olunması istiqamətində işlərə 2000-ci ildə Minilliyin İnkişaf Məqsədlərinə qoşulmaqla başlanılıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", eləcə də "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın uğurla həyata keçirilməsi nəticəsində ölkədə yoxsulluğun və işsizliyin azaldılması istiqamətində mühüm nailiyyətlər əldə edilib.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov çıxış edərək, Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2019" hesabatında Azərbaycanın 190 ölkə arasında 32 pillə irəliləyərək, 57-ci pillədən 25-c yerə yüksəldiyini diqqətə çatdırıb. **"Dünya Bankı kimi nüfuzlu bir qurumun hesabatında yüksək pilləyə qalxmağımız, uğurlarımız Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsizliyini və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin mənafelərini əks etdirdiyini bir daha göstərir",** - deyə S.Orucov vurğulayıb.

Konfrans işini iki paneldə davam etdirib.

YAP Gəncə şəhər təşkilatının sədri, deputat Naqif Həmzəyev, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli, Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini, YAP Gənclər Birliyini sədr müavini Ramin Məmmədov, Ədliyyə Nazirliyinin İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Aynur Sabitova, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbərinin müavini Dinara Abbas, Dayanaqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov, Kənd Təsərrüfatı yanında Aqrar Kredit və İnkişaf Agentliyinin sədr müavini Namiq Məmmədov, Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova panellərdə çıxış edərək, Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində Azərbaycanda görülmüş işlər barədə iştirakçılara ətraflı məlumat veriblər.

Məruzəçilər qlobal layihənin həyata keçirilməsində, daha yaxşı gələcək üçün yoxsulluğu aradan qaldırmaqda, bərabərsizliklərə qarşı tədbirlər görmək və iqlim dəyişikliyi ilə mübarizədə gənclərin fəal iştirakının, həmrəy olmalarının vacibliyini vurğulayıblar.

Konfransda qeyd olunan məsələlərlə bağlı ətraflı müzakirələr aparılıb, gənclərin sualları plenar üzvləri tərəfindən ətraflı cavablandırılıb.

Dayanıqlı İnkişaf Məqsədlərindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə fəal gənclərə fəxri fərmanlar təqdim edilib.

# Mətyu Brayzə: Şəxsi təcrübəmdən bilirəm ki, vaxtilə ailəmlə birlikdə yaşadığım Bakı çox təhlükəsiz şəhərdir



Gələn həftə - mayın 29-da Bakı UEFA Avropa Liqasının "Arsenal" və "Çelsi" komandaları arasında keçiriləcək final oyununa ev sahibliyi edəcək. Hesab edirəm ki, bu, möhtəşəmdir. Bu oyun Bakının necə gözəl şəhər, həmçinin yaşamaq üçün möhtəşəm bir məkan olduğunu bütün avropalılara və dünyaya nümayiş etdirmək baxımından çox gözəl bir imkandır. Şəxsi təcrübəmdən bilirəm ki, vaxtilə ailəmlə birlikdə yaşadığım Bakı çox təhlükəsiz şəhərdir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Mətyu Brayzə söyləyib.

**"Təəssüf ki, "Arsenal" klubunun erməni əsilli oyunçusu Mxitaryan təhlükəsizlik məsələsini əsas gətirərək Bakıda keçiriləcək bu oyunda iştirak etməmək barədə qərar verib. Aydındır ki, bu, onun şəxsi seçimidir. Məncə, bu oyunda iştirak etməməsi onun futboldan qazanacağı puldan məhrum olmasına səbəb olacaq. Zənnimcə, bu, ağıllı seçim deyil. Onun Bakıda yarış zamanı futbol meydançasında özünün təhlükəsizliyi ilə bağlı narahat olması üçün heç bir səbəb görmürəm. Mən ermənilər tanıyıram ki, Azərbaycana rahat səfər ediblər. Amma bu, hər halda futbolçunun şəxsi qərarıdır. Ümid edirəm ki, bu, oyunun möhtəşəm keçməsinə, eləcə də xarici qonaqların Bakının gözəlliyindən həzz almalarına mane olmayacaq. Düşünürəm ki, həm bu oyunun, həm də Bakının gözəlliyinin nümayiş etdirilməsinin siyasətlə heç bir əlaqəsi yoxdur",** - deyə M.Brayzə vurğulayıb.

# Eldar İbrahimov: Azərbaycan ərzaq təhlükəsizliyinə ölkənin milli təhlükəsizliyinin vacib bir komponenti kimi daim böyük önəm verir

**“Kənd təsərrüfatının geniş potensialından daha səmərəli istifadə etmək məqsədilə aqrar sektorda yeni islahatlar paketi elan olunub. Kənd təsərrüfatında yeni islahatlar kursunun məqsədi ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün intitusional potensialın gücləndirilməsindən, aqrar sahə üzrə dövlət tənzimlənməsinin effektivliyinin yüksəldilməsindən, biznes mühitinin yaxşılaşdırılmasından, kənd təsərrüfatı məhsullarının istehsal imkanlarının artırılmasından, bazar infrastrukturunun təkmilləşdirilməsindən və istehsalçıların bazara çıxışının asanlaşdırılmasını təmin etməkdən ibarətdir”.** Bu fikirləri Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov deyib.



E.İbrahimov bildirib ki, bu məqsədlər üçün normativ-hüquqi bazanın təkmilləşdirilməsi, regional ixtisaslaşdırma aparılması, aqrar sahəyə investisiya qoyuluşlarının təşviq edilməsi, informasiya-məsləhət xidməti şəbəkəsinin formalaşdırılması, aqrar sığortanın tətbiqi ilə bağlı hüquqi və institusional tədbirlər görülməsi, ixracın çeşidinin artırılması və bazarların diversifikasiyası və s. addımların atılması nəzərdə tutulur. Bütövlükdə, aqrar sektorun maddi-texniki bazasının ardıcıl şəkildə möhkəmləndirilməsinə, yeni yanaşmaların tətbiqinə “yaşıl işıq” yandırılmasına, həmçinin bu sahədə aparılan institusional islahatlara istinadən deyə bilərik ki, respublikamızda məhsuldarlığın artırılmasına hesablanan yeni bir kənd təsərrüfatı sistemi formalaşdırılır.

**“Şübhə yoxdur ki, həyata keçirilən məqsədyönlü tədbirlər və islahatlar perspektivdə milli iqtisadiyyatımızda aqrar sektorun mövqeyinin möhkəmlənməsini təmin edəcək. Aqrar sektorda startı verilən yeni islahatlar kursunun əsas hədəflərindən biri ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün institusional potensialın gücləndirilməsindən ibarətdir. Qlobal risklərin artdığı bir şəraitdə Azərbaycan əhalinin ərzaq təhlükəsizliyinə ölkənin milli təhlükəsizliyinin vacib bir komponenti kimi daim böyük önəm verir. Son 15 ildə respublikamızda ərzaq təminatının möhkəmləndirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilib. Öz növbəsində bu istiqamətdə həyata keçirilən tədbirlər artıq öz müsbət nəticələrini verir. Respublikamızda bir sıra pozisiyalar üzrə daxili ərzaq tələbatının 100 faiz həcmində yerli istehsal hesabına ödənilməsi böyük nailiyyətdir. Hazırda ölkəmizdə meyvə-tərəvəzə olan daxili tələbat tam həcmdə yerli istehsal hesabına təmin edilir. 2018-ci ildə respublikamızda 1,5 milyon tondan çox tərəvəz, 1 milyon tondan çox meyvə və giləmeyvə istehsal olunub ki, bu da müstəqillik dövründə qazanılmış ən yüksək nəticədir”**, - deyə E.İbrahimov qeyd edib.

# Azərbaycan iqtisadiyyatı inkişaf edir, sosial problemlər öz həllini tapır

**“Ümumiyyətlə, dövlətin bir adı da ədalətdir. Əlbəttə ki, hazırkı mərhələdə sosial ədalətə söykənərək cəmiyyətin, vətəndaşın problemlərinin həlli Azərbaycan dövlətinin vəzifəsidir, borcudur”.** Bunu SİA-ya açıqlamasında “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Millət vəkilinin sözlərinə görə, Azərbaycan dövləti bu vəzifənin öhdəsindən layiqincə gəlir: **“Məsələ ondadır ki, sosial sahə daima diqqət tələb edən bir sahədir. Biz olduqca dinamik bir cəmiyyətdə yaşayırıq. Azərbaycan cəmiyyəti inkişaf edir, onun iqtisadiyyatı inkişaf edir, sosial sferası inkişaf edir, sənaye, kənd təsərrüfatı inkişaf edir və intellektual baxımdan Azərbaycan cəmiyyəti yetkinləşir. Bu prosesdə Azərbaycan xalqının sayı artır. Bu o deməkdir ki, yeni iş yerləri açmaq lazımdır, sosial problemləri həll etmək lazımdır. Təbii ki, əhalinin sayı artdıqca problemlərin də sayı artır. Çox yaxşı haldır ki, Azərbaycan dövləti bütün bu prosesi izləyir, nəzarətdə saxlayır və onu proqnozlaşdırır. Cəmiyyətin inkişafına paralel olaraq onun yarana biləcək mümkün problemlərinin həlli ilə də bağlı vaxtaşırı Dövlət proqramları qəbul edir. Azərbaycan dövləti bu prosesə kompleks yanaşır. Çünki biz 2019-cu ilin əvvəlindən bu günə qədər həyata keçirilən islahatlardan danışsaq, görəcəyik ki, bu təkcə 2019-cu il və yaxud 2018-ci il hadisəsi deyil. Bunun dərin kökləri var. Bu köklər problemə kompleks yanaşmanı özündə ehtiva edir.**



**Bu nədir? Əlbəttə ki, islahatların aparılması üçün şərtlər formalaşır. Bu şərtləri təmin edən resurslar formalaşır. Təbii ki, bunu həyata keçirmək üçün siyasi iradənin vacibliyi ortaya çıxır. Hazırda biz Azərbaycanda bu üç komponentin bir-birini tamamlayan vəhdətini görürük. İlk növbədə dinamik cəmiyyətin tələblərinə, şərtlərinə uyğun olaraq Azərbaycan iqtisadiyyatı əgər problemlər varsa onları həll etmək üçün mövcud imkanlar təqdim edir”.**

# Aydın Hüseynov: Azərbaycanda həyata keçirilən islahatlar vətəndaşların rifahının daha da yaxşılaşmasına xidmət edir

Son illərdə Azərbaycanda həyata keçirilən dərin iqtisadi islahatlar ölkədə əlverişli biznes mühitinin inkişafına xidmət edir. İqtisadi inkişafın son məqsədi vətəndaşın daha yaxşı yaşamasını təmin etməkdir. Əhaliyə bütün sahələrdə göstərilən xidmətlərin mənbəyində iqtisadiyyatın inkişafı dayanır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov söyləyib. Deputat qeyd edib ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar əldə olunan gəlirlərin vətəndaşın rifahının daha da yaxşılaşmasına istiqamətlənib. Ölkəmizdə qeyri-neft sənayesində qeydə alınan artımlar dövlət başçısı tərəfindən həyata keçirilən iqtisadi islahatların real nəticələridir.

Deputat vurğulayıb ki, Cənubi Qafqaz regionunun iqtisadi potensialının 70 faizi Azərbaycanda formalaşıb. Azərbaycan iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə dünya ölkələri arasında qabaqcıl yerlərdən birini tutur. Dünya Bankının biznes mühitinə dair hesabatına görə, Azərbaycan dünyada 25-ci yerdədir. Beynəlxalq reytinq agentlikləri Azərbaycanın potensial maliyyə və iqtisadi imkanlarını yüksək qiymətləndirirlər.



Aydın Hüseynov bildirib ki, Azərbaycanda nəqliyyat infrastrukturunun yenilənməsi, sahibkarlara və iş adamlarına dövlətin güzəştli kreditlər verməsi sənayenin və kənd təsərrüfatının inkişafına səbəb olur. Dövlət investisiyalarının artırılması və qeyri-neft sektorunun inkişafına yönəldilməsi onu deməyə əsas verir ki, hökumət neftdən gələn gəlirlərdən olduqca səmərəli istifadə edir. Aparılan uğurlu siyasət ölkəmizə böyük həcmdə sərmayənin yatırılmasına gətirib çıxarıb. Son 15 il ərzində Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyulub və bu sərmayənin yarısı xarici investisiyadır. Yəni, xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir. Azərbaycanda mövcud olan sərmayə mühiti xarici investorları həvəsləndirir. Son 15 il ərzində 2 milyon yeni iş yeri yaradılıb. Əhalinin sayı isə 1,6 milyon artıb. Bu da inkişafın bir göstəricisidir.

# Radikalların heç bir niyyəti baş tutmayacaq



***Milli Məclisin deputatı Elman Nəsirov www.yap.org.az saytına müsahibə verib:***

**- Elman müəllim, hazırda aktual mövzulardan biri xaricdə yaşayan bəzi azərbaycanlıların müəyyən etiraflar etməsi, ölkəmizə qarşı radikal mövqedən geri çəkilməsidir. Sizcə, onlar davranışlarında nə qədər səmimidirlər?**

- Xaricdə yaşayan bəzi mühacir azərbaycanlıların davranışları çoxlu suallar doğurur. Onlar bəzən həddindən artıq radikal mövqe seçirlər. Və heç bir halda özlərini müxalifət kimi aparmırlar. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, hakimiyyətə qarşı müxalifət olmaq olar. Lakin öz dövlətinə və xalqına qarşı müxalifətdə dayanmaq olmaz. Həm də özünü müxalifətçi kimi təqdim edib söyüş söymək, insanları təhqir etmək, şərəf və ləyaqətini təhqir etmək yolverilməzdir. Bu cür davranışlar milli mentalitetimizə də ziddir.

Düşünürəm ki, mühacir həyatı yaşayan azərbaycanlılar obyektiv mövqe ortaya qoymalıdır. Onlar hansısa məsələ ilə bağlı sağlam tənqid edib öz təkliflərini verə bilərlər. Amma Azərbaycan həqiqətlərini təhrif etmək, Avropa ictimai fikrində Azərbaycan haqqında mənfi fikir formalaşdırmaq, ölkəmizin qazandığı uğurlardan kədərlənmək qəbuledilməzdir.

Təbii ki, bu məsələdə müəyyən müsbət tendensiyalar var. Xaricdəki radikal mövqedə dayanan bəzi azərbaycanlıların davranışında obyektivliyə yaxın mövqe yaranması diqqətdən yayınmır. Amma istərdik ki, bu, küll halında olsun, manevr xarakteri daşımasın, onların da Vətəni olan Azərbaycana sevgilərini, diqqətlərini ifadə edən mövqe olsun. Bir çox hallarda görürük ki, onların davranışları ermənilərin dəyirmanına su tökmək anlamı verir. Bir çox hallarda ermənilərdən daha çox erməni olmaq tendensiyası müşahidə olunur ki, bu da qəbuledilməzdir. Amma bir daha vurğulayıram ki, müəyyən pozitiv davranışlar var. Çox istəyərdik ki, bu tendensiya olaraq qalmasın.

**- Sizcə, bu fəaliyyət Azərbaycanın beynəlxalq nüfuzuna zərər vura bilirmi?**

- Bilirsiniz ki, bir müddət öncə Azərbaycan Prezidentinin Belçikaya işgüzar səfəri oldu. Prezident İlham Əliyevin Belçikaya səfəri mühüm əhəmiyyət kəsb edir. Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramının 10 illik yubileyi münasibətilə reallaşan səfər zamanı dövlətimizin başçısı vacib görüşlər keçirib. Lakin bəzi müxalif qüvvələr ölkəmizin Şərq tərəfdaşlığından imtina etməsinə dair yanlış məlumatlar yaydılar. Təbii ki, əsas məqsəd hər zamankı kimi ölkədə ictimai rəyi çaşdırmaq idi. Amma radikal müxalifətin heç bir niyyəti baş tutmayacaq.

Brüssel səfəri zamanı Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk dövlətimizin başçısı ilə görüşdə Azərbaycanın Avropa enerji təhlükəsizliyi üçün çox böyük önəm kəsb etdiyini qeyd etdi. Ölkə başçısı da Aİ ilə hərtərəfli əməkdaşlığın genişlənməsində maraqlı olduğunu bildirdi. Ölkəmizin Aİ ilə enerji təhlükəsizliyi sahəsində çox ciddi əməkdaşlığı formalaşıb. 2020-ci ildə Cənub Qaz Dəhlizi işə düşəcək ki, bu da Avropanın meqalayihəsi olaraq Azərbaycan-Aİ münasibətlərinin yeni müstəviyə keçməsinə imkan yaradacaq. Səfər çərçivəsində Donald Tusk iştirakçı dövlətlərin liderlərinin şərəfinə axşam ziyafəti verdi. Həmin ziyafətdə də o, Azərbaycanın ölkə başçısından yanında əyləşməyi xahiş etdi. Bunun özü bizim münasibətlərimizin hansı səviyyədə olduğunu və cənab Prezidentimizə göstərilən diqqətin ifadəsidir.

Ümumiyyətlə, Azərbaycan demokratik inkişaf yolunu seçmiş dövlətdir. Bu gün ölkəmizdə 55 siyasi partiya mövcuddur. Belə olan halda mətbuat və söz azadlığı üzərində hansı qadağalardan söhbət gedə bilər? Radikal müxalifətin, eləcə də xaricdə yaşayan bəzi azərbaycanlıların ölkəmiz haqqında mənfi rəy formalaşdırmaq istəyi iflasa məhkumdur.

Azərbaycanda hər zaman sərbəst toplaşma azadlığı var. Amma nəzərə alınmalıdır ki, demokratiya anarxiya, xaos deyil. Qanunlar işləməyən yerdə demokratiya yoxdur. Azərbaycan hüquqi dövlətdir, ölkəmizdə həm sərbəst toplaşma, həm də digər demokratik azadlıqlar təmin edilib. Bu məsələdə Azərbaycan bir çox dünya ölkələri üçün nümunədir. Avropada mitinqlərin dağıdılması üçün atlardan, itlərdən istifadə edildi. Fransanın özündə “sarı jiletlilər” hərəkatını dağıtmaq üçün polisin necə güc tətbiq etdiyi gözümüzün qarşısındadır. Hesab edirəm ki, radikal müxalifətin bu yanaşmalarının və canfəşanlığı”nın heç bir əsası yoxdur. Onların heç bir istəkləri baş tutmayacaq. Azərbaycan xalqı bu qüvvələrin əsas niyyətini çox gözəl bilir.

Mövcud reallıqlar fonunda xaricdə yaşayan azərbaycanlılar Vətən sevgisindən irəli gələrək dövlətin mənafeyinə xidmət edən addımlar atmalıdır. Onlarda milli təəssübkeşlik olmalıdır. Azərbaycana qarşı yalnız ermənilər çirkin niyyətli addımlar ata bilərlər. Amma belə hərəkətlərdən birini Orduxan kimilər etdi. Onlar Brüsseldə elə davranış ortaya qoydular ki, bizim dəyərlərimizə tamamilə ziddir. Amma belələri azlıqdadır. Xaricdə yaşayan azərbaycanlıların mütləq əksəriyyəti vətənpərvərdir, diasporumuz ölkəmizin təəssübünü çəkir, uğurlarımıza sevinir və paylaşırlar.

Radikallara gəlincə, biz onları ağıla, sağlam məntiqə dəvət edirik. Arzu edirik ki, onlar bir gün papaqlarını qarşılarına qoyub düşünsünlər ki, qərib ölkədə vətən həsrəti, vətən sevgisi daha böyük olur. Azərbaycan həm də onların Vətənidir. Müxalifət kimi mövcud olub iqtidarı tənqid etmək olar. Amma heç zaman Azərbaycan dövlətinə və xalqına qarşı yalanlar söyləmək olmaz.

**- Dünyada baş verən mürəkkəb, ziddiyyətli proseslər ölkəmizdə milli həmrəyliyin daha da gücləndirilməsini nə dərəcədə zəruri edir?**

- Heç şübhəsiz ki, xaricdə və ölkə daxilində radikal mövqe tutanlar kiminsə əlində alət olduqları üçün istifadə olunub atılacaqlar. İnsan vicdan və insaf hissini itirməməlidir. Mühacirlərin bir qismi doğrudanmı düşünmürlər ki, mürəkkəb bir dünyada yaşayırıq. Rusiyanın xarici işlər naziri Sergey Lavrov belə bir fikir söyləmişdi ki, dünya dəli olub. Və dəli olmuş bir dünyada kiçik dövlət olasan və böyük enerji potensialın ola və bu vəziyyətdə müxtəlif dövlətlərin maraqlarının cəmləşdiyi regionda yerləşəsən. Belə bir şəraitdə elə müdrik siyasət həyata keçirəsən ki, müxtəlif güc mərkəzləri ilə bərabər məsafədə dayanmağı bacarasan. Bu yalnız Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil və milli maraqlara əsaslanan siyasət nəticəsində baş verib. Bu bütün uğurlarımızı şərtləndirən əsas amildir.

Radikallar baxsınlar ki, regionda nə qədər mürəkkəb proseslər baş verir. Belə bir vəziyyətdə sabit Azərbaycan var. Onlar xaricdə yaşasalar da, ailələri, qohumları burda yaşayırlar. Yaşadığımız ölkədə əmin-amanlıq, sabitlik var və bu amillərin təminatçıları var. Təminatçı xalq və onun seçdiyi dövlət başçısı var. Bunu görməyənlər gərək kor olsun.

Onlara müraciətlə deyirəm ki, ağıla üstünlük verin, vicdan hissini itirməyin. Müqayisələr apararaq görün ki, Azərbaycan vətəndaş müharibəsindən vətəndaş həmrəyliyinə və səfərbər olmuş cəmiyyətə gəlmiş bir dövlətdir. Bu adamlar milli təəssübkeşliyi heç zaman unutmamalıdırlar.

# YAP Suraxanı rayon təşkilatı “Bir damla qan həyatdır” şüarı ilə qanvermə aksiyası təşkil edib





Mayın 22-də Yeni Azərbaycan Partiyası (YAP) Suraxanı rayon təşkilatı 15 saylı Birləşmiş Şəhər Xəstəxanası ərazi ilk partiya təşkilatı ilə birgə müqəddəs Ramazan ayı münasibəti ilə “Bir damla qan həyatdır” şüarı ilə qanvermə aksiyası təşkil edib. YAP Suraxanı rayon təşkilatının inzibati binasında keçirilən qanvermə aksiyasının təşkilində əsas məqsəd anemiya xəstəliyindən əziyyət çəkən uşaqlara yardım etməkdən ibarət olub.

Onu da qeyd edək ki, qanvermə aksiyası ilə bağlı məlumat öncədən sosial şəbəkələr vasitəsilə elan edilib və könüllü iştirakçı olmaq istəyənlər təşkilatçılar tərəfindən qeydiyyata alınıb. Daha sonra həkim briqadası tərəfindən YAP Suraxanı rayon təşkilatının inzibati binasında aksiyada iştirak edəcək şəxslərin tibbi müayinəsi aparılıb və sağlamlığı qanverməyə uyğun olan şəxslər aksiyada iştirak ediblər.

# İnsan alverinə qarşı mübarizədə beynəlxalq təcrübə öyrənilir

Avropa İttifaqının və Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) İnkişaf Fondu tərəfindən birgə maliyyələşdirilən “Azərbaycanda insan alverinə qarşı mübarizə üzrə milli potensialın gücləndirilməsi” layihəsi çərçivəsində BMqT-nin ölkəmizdəki nümayəndəliyinin və regional ofisinin dəstəyi ilə Azərbaycanın 11 nəfərlik nümayəndə heyəti Litvada dördgünlük tanışlıq səfərində olub.



Nümayəndə heyətinə Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının, Daxili İşlər Nazirliyinin İnsan alverinə qarşı mübarizə baş idarəsinin, Baş Prokurorluğun və Vəkillər Kollegiyasının təmsilçiləri, apellyasiya və rayon məhkəmələrinin hakimləri daxil edilib.

Ədliyyə Akademiyasından AZƏRTAC-a bildiriblər ki, səfərin məqsədi insan alverinə qarşı mübarizədə hüquqi qərarların verilməsi, insan alveri qurbanlarının müdafiəsi sahəsində beynəlxalq və Avropa standartlarının tətbiqi, qanunvericiliyin təhlili və Litvada insan alveri ilə bağlı cinayətlərin təqibi halları, bu sahədə prosedur və qaydalarla tanış olmaqdır.

Litva Respublikasının Vilnüs və Kaunas şəhərlərində olan nümayəndə heyəti Litva Hökumətinin Kansleri Alqirdas Stonçaytis, baş prokurorun müavini Rimvyadas Valentukeviçius, sosial təhlükəsizlik və əmək nazirinin müavini Etvidas Binqales, Litva baş polis komissarı Linas Pernavas, Ali Məhkəmənin hakimləri ilə görüşlər keçirib, faydalı fikir və təcrübə mübadiləsi aparıb.

Hökumətin Kansleri ilə görüşdə ölkəmizin insan alverinə qarşı mübarizəyə dair qanunvericiliyi və hüquqi praktikası ilə bağlı əyani təqdimatla çıxış edilib. Həmçinin bu sahədə müsbət təcrübələr, yanaşmalar və yeni tendensiyalar, insan alveri qurbanlarına yardım göstərilməsi prosedurları barədə maraqlı müzakirələr aparılıb.

Səfər çərçivəsində nümayəndə heyəti İnsan alveri qurbanlarına yardım üzrə Vilnüs Böhran Mərkəzinin, Kaunasda yerləşən Kişilərin Böhran Mərkəzi Assosiasiyasının, Kaunas şəhər bələdiyyəsi nəzdində insan alverinə qarşı çoxşaxəli mübarizəyə dair komandanın fəaliyyəti ilə yaxından tanış olub.

Eyni zamanda, Azərbaycanın Litvadakı səfirliyinə baş çəkilib. Səfir Tamerlan Qarayev səfirliyin fəaliyyəti barədə ətraflı məlumat verib, maraq doğuran məsələlər müzakirə edilib.

# Novruz Quliyev: Ekoloji tarazlığın qorunması dövlətimizin siyasətinin prioritetləri sırasındadır







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci ildə imzaladığı Sərəncama əsasən hər il mayın 23-ü ölkəmizdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilir. Ekoloqların peşə bayramı gününün təsis edilməsi, 2010-cu ilin ölkəmizdə "Ekologiya ili" elan olunması, dövlətimizin başçısı tərəfindən bu sahəyə aid sərəncamların verilməsi, yeni milli parkların yaradılması, ətraf mühitin qorunması, nadir və nəsli kəsilmək təhlükəsində olan bioloji növlərin artırılması, ekoturizmin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər sübut edir ki, ekoloji tarazlığın qorunması dövlətimizin siyasətinin prioritetləri sırasındadır.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Novruz Quliyev AZƏRTAC-a məxsusi müsahibəsində ölkəmizdə ekoloji sağlamlaşdırma istiqamətində aparılan bu və digər işlərdən bəhs edib.

**- Ekoloji tarazlığın qorunmasında xüsusi mühafizə olunan təbiət ərazilərinin mühüm rolu var. Son illər bu istiqamətdə görülən işlərin inkişaf dinamikası barədə nə deyə bilərsiniz?**

- Doğrudur. Zəngin təbiətimizin bioloji növ müxtəlifliyinin, ekosistemlərin qorunması və gələcək nəsillərə çatdırılmasının təmin edilməsində xüsusi mühafizə olunan təbiət ərazilərinin müstəsna rolu var.

2001-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılanda ölkədə ümumi sahəsi 478 min hektar olan 14 dövlət təbiət qoruğu və 20 dövlət təbiət yasaqlığı mövcud idi. Xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi ölkə ərazisinin 4,5 faizini, o cümlədən dövlət təbiət qoruqlarının ümumi sahəsi isə ölkə ərazisinin cəmi 2,2 faizini təşkil edirdi. Həmin dövrdə Azərbaycanda milli park statuslu qorunan ərazilər yox idi və onların təşkilinə 2003-cü ildən başlanıb.

Milli parkların yaradılmasında əsas məqsəd ətraf mühitin, ekoloji tarazlığın, təbiət abidələrinin qorunması şərtilə ekoturizmin inkişafı, ekoloji maarifləndirmənin gücləndirilməsi, regionun zəngin təbiətinin mühafizəsindən ibarətdir.

Hazırda ölkəmizdə 893 min hektar sahəni əhatə edən mühafizə olunan təbiət əraziləri fəaliyyət göstərir. Bunlardan 10-u milli park, 11-i dövlət təbiət qoruğu, 24-ü dövlət təbiət yasaqlığıdır. Ümumilikdə, xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,31 faizini, ayrılıqda milli parklar 4,87 faizini, dövlət təbiət qoruqları 1,39 faizini, dövlət təbiət yasaqlıqları isə 4,05 faizini təşkil edir.

2018-ci ilin sentyabrında Xəzər dənizinin sahilində 99 min 060 hektarlıq ərazidə Qızılağac Dövlət Təbiət Qoruğunun bazasında yeni milli park - Qızılağac Milli Parkı yaradılıb. Bununla yanaşı, "Zaqatala biosfer qoruğunun yaradılması" layihəsi üzrə Zaqatala-Balakən regionunda Zaqatala Dövlət Təbiət Qoruğunun bazasında ölkə tarixində ilk biosfer qoruğunun yaradılması istiqamətində mühüm işlər görülür və bu işlərin sona çatdırılması nəticəsində xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi xeyli genişlənəcəkdir.

Bundan əlavə, xüsusi mühafizə olunan təbiət ərazilərini antropogen təsirlərdən qorumaq məqsədilə onların ətrafında sanitariya-mühafizə zonaları yaradılır. Artıq bir neçə milli park və qoruqda (Abşeron, Ağgöl, Altıağac və Göygöl milli parkları, həmçinin Korçay və Eldar Şamı dövlət təbiət qoruqları) bu işlər tam başa çatdırılmış və sanitariya-mühafizə zonaları təsdiq edilmişdir.

**- Nadir və nəsli kəsilmək təhlükəsində olan bioloji növlərin artırılması istiqamətində aparılan mühüm işlərdən biri onların tarixən məskunlaşdıqları ərazilərə reintroduksiya olunması və populyasiyalarının bərpasıdır. Ölkəmizdə bu istiqamətdə hansı işlər görülür?**

- Bu işlər 2010-cu ildən etibarən intensiv xarakter alıb. Həmin il Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Heydər Əliyev Fondunun, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsü - IDEA-nın və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyinin əməkdaşlığı çərçivəsində "Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası" layihəsinin icrasına başlanılıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təsisçisi və rəhbəri olduğu IDEA İctimai Birliyinin dəstəyi ilə ümumilikdə 179 baş ceyran tarixi areallarına qaytarılıb, bunun 169 başı respublikanın müxtəlif ərazilərinə, 10 başı isə Gürcüstanın Vaşlavani Milli Parkı ərazisinə köçürülüb.

Keçən il noyabrın 12-15-də WWF-in, AMEA-nın Zoologiya İnstitutunun, BMT-nin İnkişaf Proqramının (UNDP) Azərbaycan nümayəndəliyinin 20 mütəxəssisi tərəfindən və Şirvan Milli Parkının əməkdaşlarının birgə iştirakı ilə 6 marşrut üzrə ceyranların say monitorinqi aparılıb, məhəllələr üzrə bölünmüş milli park ərazisi boyu əldə edilmiş nəticələr emal olunub, işçi komandanın ortaq qərarına əsasən milli park ərazisində 9000 başadək ceyranın məskunlaşdığı qənaətinə gəlinib. Səkkiz il ərzində reintroduksiya edilmiş ceyranların sayı 213 başa çatdırılıb.

2012-ci ilin sonlarından etibarən zubr (bizon) növünün ölkəmizin vəhşi təbiətinə introduksiya edilməsi istiqamətində IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan ofisi tərəfindən intensiv işlər aparılır. Belə ki, 2015-ci ildə Şahdağ Milli Parkı ilə IDEA İctimai Birliyi arasında bu sahədə imzalanmış Əməkdaşlıq Sazişinə əsasən bizonların ölkə təbiətinə reintroduksiya olunması, digər növ vəhşi heyvanların elmi məqsədlərlə artırılması üçün Şahdağ Milli Parkının İsmayıllı rayonunun inzibati ərazisinə aid olan hissəsində 305 hektar sahə ayrılıb, ərazidə zubrların çoxaldılıb təbiətə buraxılması üçün kompleks inşa edilib və hazırda layihə çərçivəsində işlər davam etdirilir. 2019-cu ilin may ayında Azərbaycana 20 baş zubrun introduksiya olunması və 1 neçə ay müddətində qapalı volyer şəraitində saxlanıldıqdan sonra geniş təqdimat çərçivəsində təbiətə buraxılması planlaşdırılır.

**- Ölkəmizdə flora və faunanın genefondunun mühafizəsinin səmərəli vasitələrindən biri də "Qırmızı Kitab"ın yaradılmasıdır. Adları bu kitaba daxil edilən heyvan və bitki növlərinin mühafizəsinə daha ciddi diqqət yetirilir. Hazırda bu kitabda qorunma statusu olan neçə bitki və heyvan növü vardır?**

- "Azərbaycan Respublikasının Qırmızı Kitabı" rəsmi sənəd olmaqla bərabər, ölkənin bütün ərazisində, o cümlədən Xəzər dənizinin respublikamıza mənsub olan bölməsində heyvan və bitki növlərinin (yarımnöv, populyasiyalar) vəziyyəti, yayılması və mühafizəsi tədbirləri haqqında məlumatları özündə əks etdirir. İndiyədək Azərbaycanda "Qırmızı Kitab"ın 2 nəşri işıq üzü görüb. Birinci nəşrdə milli floramızda mühafizəsi tələb olunan 140, fauna üzrə isə 108 növün adı əksini tapıb. "Qırmızı Kitab"ın 2013-cü ildə çap olunmuş ikinci nəşrində isə mütəxəssislər tərəfindən ölkəmizin müxtəlif təşkilatlarının nümayəndələri ilə əməkdaşlıq çərçivəsində qorunma statusu qiymətləndirilmiş 300 bitki və 223 heyvan növü yer alıb.

Nadir və nəsli kəsilməkdə olan növlərin tədqiqi üzrə mütəxəssislər tərəfindən intensiv monitorinqlər keçirilib, bu növlərin beynəlxalq səviyyədə müasir qorunma meyarları müəyyənləşdirilib. Bu nəşrdə ilk dəfə olaraq təbiəti mühafizə baxımından təsvir edilmiş nadir və nəsli kəsilmiş növlərin beynəlxalq səviyyədə qəbul olunmuş meyarlara görə qiymətləndirilməsi həyata keçirilib.

Mövcud qanunvericiliyə əsasən, "Azərbaycan Respublikasının Qırmızı Kitabı"nın hər 10 ildən bir çap olunması nəzərdə tutulmuşdur. Növbəti, yəni, üçüncü nəşrin 2023-cü ildə hazırlanması planlaşdırılır. "Qırmızı Kitab"ın ikinci nəşri prosesində texniki məsələlərlə bağlı bir sıra problemlərlə qarşılaşdıq. Bu səbəbdən işlərin vaxtında başa çatdırılması, texniki məsələlərin həlli, eləcə də çöl tədqiqatlarının aparılması, növlərin say dinamikasının qiymətləndirilməsi üçün nazirliyə Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat institutlarının da dəstəyi vacibdir. Qarşılıqlı əməkdaşlıq sayəsində daha çevik fəaliyyət göstərərək yüksək nəticəyə nail olmaq mümkündür.

"Qırmızı Kitab"ın təsis edilməsinə, nadir və sayı azalan növlərin ovuna qadağaların qoyulmasına, mütəmadi maarifləndirmə və təbliğat işlərinin aparılmasına baxmayaraq, təəssüf ki, quruda və su hövzələrində heyvanların qanunsuz ovu hallarına rast gəlirik və bununla bağlı mübarizə tədbirləri davam etdirilir.

**- Bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiyada Ekologiya və Təbii Sərvətlər Nazirliyi qarşısında çox vacib vəzifələr qoyulub. Bu istiqamətdə görülən işlər barədə məlumat verməyinizi xahiş edirik.**

- Bəli, bu, çox vacib sənəddir. Milli Strategiya Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilib. Sərəncamın 2-ci bəndinə əsasən Strategiyanın həyata keçirilməsi üzrə əlaqələndirici orqan Ekologiya və Təbii Sərvətlər Nazirliyi təyin edilib, müvafiq dövlət qurumlarının nümayəndələrindən ibarət İşçi Qrupu yaradılıb. Həmçinin Strategiyanın icrası ilə bağlı "Tədbirlər Planı" hazırlanıb. "Tədbirlər Planı"na əsasən su hövzələrində bioloji resursların artırılması və mühafizəsi istiqamətində faydalı işlər görülüb.

Qeyd etmək lazımdır ki, ölkədə istehsal olunan balıq mənşəli məhsulların özünü təminetmə səviyyəsi aşağıdır və daxili tələbatı tam ödəmək üçün yetərli deyildir. Ötən illərdə balıqçılıq sahəsi əsasən ekstensiv üsulla inkişaf etdirilib, başqa sözlə, akvakulturada daha çox nohurçuluq üsulu ilə çəki kimi balıq növlərinin yetişdirilməsinə və təbii yemləməyə üstünlük verilib.

Ölkədə akvakulturanın zəif inkişaf etməsi nəticəsində balıq mənşəli məhsullar ilə daxili tələbatın tam ödənilməməsi təbii su hövzələrində olan, xüsusilə də Xəzər dənizində qiymətli balıq növlərinin populyasiyalarına antropogen təsirin əhəmiyyətli dərəcədə artmasına, brakonyerlik fəaliyyətinin genişlənməsinə səbəb olub.

Xəzər dənizində bioloji resursların müasir gərgin vəziyyətini nəzərə alaraq, balıqovlama fəaliyyəti ehtiyatlı yanaşmaya əsasən aparılmalıdır. Xəzəryanı regionunda və ölkəmizdə akvakulturanı inkişaf etdirmək, əhalini yeni fəaliyyət növü olan akvakulturaya cəlb etmək lazımdır ki, bu da qanunsuz balıq ovunun azalmasına və Xəzər dənizində su bioresurslarının bərpasına səbəb ola bilər. Xəzəryanı ölkələr və Azərbaycan üçün davamlı inkişafın əsas prioritetlərindən biri - daxili sularda və dənizdə akvakultura (o cümlədən, marikultura) təsərrüfatlarının inkişafı, Xəzər dənizində nərəkimilərin ovlanmasına moratoriumun qoyulmasıdır.

Azərbaycan Respublikasında intensiv sənaye balıqçılıq komplekslərinin, ailə-kəndli və fermer balıqçılıq təsərrüfatlarının yaradılması, dünyada mövcud olan mütərəqqi təcrübələrdən istifadə edilməklə təbii su hövzələrinin və Xəzər dənizinin ixtiofauna bioloji müxtəlifliyinin qorunub saxlanılması və artırılması, bu sahələrdən istifadə etməklə balıqçılıqda intensiv akvakulturanın müxtəlif biotexnologiya tiplərindən, qapalı su təchizatı sistemləri, marikultura və su bioloji resursları məhsullarının yetişdirilməsi üçün digər intensiv qəfəs modelləri təcrübəsinin respublikada tətbiq olunması məqsədilə "Azərbaycan Respublikasında 2019-2023-cü illərdə akvakulturanın inkişafına dair Dövlət Proqramı" hazırlanıb Nazirlər Kabinetinə təqdim edilib.

Balıqçılıq təsərrüfatlarında torpağın hüquqi statusu ilə əlaqədar problemlərin sudan istifadəyə görə balıqçılarla əkinçilər arasında maraqların toqquşmasının mövcudluğu, balıqçılıq subyektlərinin balıq və digər su bioresurslarından istifadəyə baytarlıq və fitosanitar nəzarəti üzrə uçotun aparılması və "Akvakulturanın həyata keçirilməsi qaydası"nın tətbiqindən irəli gələn digər məsələlərin həlli məqsədilə Kənd Təsərrüfatı Nazirliyi və Qida Təhlükəsizliyi Agentliyi ilə ikitərəfli Əməkdaşlıq memorandumları imzalanıb.

"Akvakulturanın həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 2017-ci il 14 iyun tarixli Qərarının icrası ilə əlaqədar olaraq 2018-ci ildə respublikamızın müxtəlif bölgələrində akvakultura subyektləri ilə görüşlər keçirilib. "Balıqçılıq haqqında" Qanuna və bu sahədə Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş digər müvafiq qərarlara əsasən, ölkəmizdə balıqçılıq sahəsində, balıq və digər su bioresurslarının mühafizəsi, ovu, artırılması, akvakultura fəaliyyətinin uçota götürülməsi, bu sahə üzrə dövlət tənzimlənməsi, idarə edilməsi və nəzarət funksiyaları ilə əlaqədar vətəndaşlara məlumatlar verilib və müzakirələr aparılıb.

**- Azərbaycanda milli parkların yaradılması ekoturizmin inkişafına təkan verib. Bu istiqamətdə hansı işlər görülüb?**

- Respublikamızda Milli parkların yaradıldığı vaxtdan indiyədək onların turizm-rekreasiya potensialı olan ərazilərində təbiət turizminin inkişaf etdirilməsi, turist marşrutlarının təkmilləşdirilməsi və sayının artırılması istiqamətində aparılan işlər nəticəsində vahid qaydada 105-dən çox ekoturizm marşrutu pasportlaşdırılıb. Pasportlarda marşrutların başlanma və bitmə nöqtələri, marşrutun məqsədi, geniş təsviri, şəkilləri, xəritəsi, davametmə müddəti, hər marşrut üzrə tələb olunan ləvazimatlara dair geniş məlumat əks olunub. Bütün marşrutlar piknik və ocaq yerləri, o cümlədən turistlərin dincəlməsi üçün skamya və digər oturacaqlarla təmin edilib.

Turizm potensialının yüksəldilməsi məqsədilə ekoturizm marşrutlarının təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir, turistlərin məlumatlandırılması üçün Azərbaycan və ingilis dillərində standart formada giriş, məlumatverici, məntəqə və istiqamətləri əks etdirən lövhələr hazırlanaraq Milli parkların ərazilərində yerləşdirilib. Azərbaycan Respublikasının Turizm Şurasının turizm sahəsində təhlükəsizliyin təmin edilməsinə dair işçi qrupu tərəfindən hazırlanan təkliflərə əsasən, bütün marşrutlar vahid standartlara uyğun mindən çox vahid yol nişanı ilə təchiz edilib. Həmçinin hər bir Milli Park üçün ekoturizmlə bağlı nəfis bukletlər nəşr etdirilib.

Milli parklarda ekoloji turizm sahəsində daha uğurlu nəticələrə və davamlı inkişafa nail olmaq üçün turist axınının stimullaşdırılması, müxtəlif yaş təbəqələrinin marağına cavab verən turizm infrastukturunun qurulması, mövcud infrastrukturun təkmilləşdirilməsi tədbirlərinin həyata keçirilməsi prioritetlərimiz sırasındadır.

**- Dövlət Statistika Komitəsinin illik hesabatına görə, 2018-ci ildə ölkə ərazisində ümumilikdə 6,6 milyon kubmetr məişət tullantısı olub. Hazırda məişət tullantılarının düzgün idarə edilməsi və utilizasiyası sanitar-ekoloji və sosial-iqtisadi baxımdan ölkəmizdə prioritet istiqamət kimi gündəmdə duran məsələlərdəndir. Bu barədə fikirlərinizi bilmək istərdik.**

- Ekoloji problemlərin həllinə yüksək dövlət qayğısı və bu işin dövlət siyasətinə çevrilməsi nəticəsində ölkəmizdə ekoloji mühitin yaxşılaşdırılması üçün çoxşaxəli tədbirlər həyata keçirilir ki, bu tədbirlərdən biri də Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər Planı"na uyğun olaraq Balaxanı ərazisində ildə 500 min ton məişət tullantısını emal etmək gücünə malik müasir məişət tullantılarının yandırılması zavodunun və ildə 200 min ton tullantının çeşidləmə zavodunun tikilməsi və istismara verilməsidir. Məişət tullantılarının idarə olunması sisteminin təkmilləşdirilməsi məqsədilə son dövrlərdə ölkəmizdə həyata keçirilən digər bu kimi tədbirlər ümumilikdə idarəolunma sisteminin beynəlxalq tələblərə uyğun inkişafının təməlini qoyub və hazırda da bu istiqamətdə davamlı olaraq tədbirlər həyata keçirilir.

Bakı şəhəri ərazisində əmələ gələn məişət tullantılarının yığılması və daşınması Bakı Şəhər İcra Hakimiyyətinin, qəbulu və zərərsizlədirilməsi isə "Təmiz şəhər" ASC-nin səlahiyyətlərindədir.

Azərbaycan Hökuməti və Dünya Bankı ilə birgə həyata keçirilən "Bərk məişət tullantılarının vahid idarəçiliyi" layihəsi çərçivəsində Balaxanı məişət tullantıları poliqonunda beynəlxalq ekoloji standartlara və texniki normalara uyğun bərpa işləri aparılıb.

Respublikada yaranan məişət tullantılarının idarə olunmasına, yəni, onların toplanması, yığılması və daşınmasına şəhər və rayon icra hakimiyyətlərinin mənzil-kommunal təsərrüfatı birlikləri, qəsəbə üzrə nümayəndəlikləri, həmçinin ərazi bələdiyyələri institusional cavabdeh təşkilatlardır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin apardığı araşdırmalar göstərir ki, regionlarımızda məişət tullantılarının idarə olunmasında problemlər qalmaqda davam edir. Belə ki, yaşayış məntəqələri ərazilərində məişət tullantılarının müəyyən olunmuş qaydada və bu məqsəd üçün ayrılmış sahələrdə yerləşdirilməməsi, tullantılar üçün konteynerlərin sayının kifayət etməməsi, tullantıların vaxtında daşınmaması və əksər hallarda yanması ətraf mühitin zərərli maddələrlə çirklənməsi ilə nəticələnir. Mövcud məişət tullantıları poliqonları da qanunvericiliyin tələblərinə cavab vermir. Belə ki, əksər poliqon əraziləri hasarlanmır, xəbərdaredici lövhələr quraşdırılmır, ətraf mühitdən təcrid olunmur, nəzarət və mühafizə formal xarakter daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018-2022-ci illər üçün Milli Strategiya" təsdiq edilib. Strategiyanın məqsədi ölkədə bərk məişət tullantılarının yığılması xidmətlərinin genişləndirilməsi, bütün tullantıların təhlükəsiz və səmərəli zərərsizləşdirilməsinin təmin edilməsi, səmərəli ictimai maarifləndirmə kampaniyalarının təşkili, emal və tullantılardan təkrar istifadə yolu ilə ehtiyatların bərpa edilməsi potensialının artırılması və ekoloji tələblərə cavab verməyən açıq zibilxanaların tədricən ləğv edilməsidir. Qeyd olunanlarla yanaşı, regionlarda məişət tullantılarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi məqsədilə müasir ekoloji tələblərə cavab verən 8 regional sanitar poliqonun və 38 ötürücü məntəqənin tikilməsi və infrastrukturun yaradılması nəzərdə tutulub. Hazırda bu obyektlər üçün yerli icra hakimiyyətləri tərəfindən müvafiq torpaq sahələrinin ayrılması işləri davam etdirilir.

Sözügedən strategiyanın və tədbirlər planının icrası məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri də ölkə regionlarında məişət tullantılarının beynəlxalq təcrübəyə uyğun idarə edilməsinə dair maarifləndirmə işlərinin aparılmasıdır.

Bununla əlaqədar olaraq Ekologiya və Təbii Sərvətlər və İqtisadiyyat nazirliklərinin nümayəndələri tərəfindən rayonlarda icra hakimiyyətlərinin, aidiyyəti icra strukturlarının, bələdiyyələrin, təhsil müəssisələrinin nümayəndələrinin, tullantıların emalı ilə məşğul olan sahibkarların iştirakı ilə bərk məişət və plastik tullantıların idarə edilməsinə həsr olunan işgüzar görüşlərin keçirilməsi davam etdirilir.

**- Sonda 23 may peşə bayramı münasibətilə ETSN işçilərini təbrik edirik. Oxucularımıza nə demək istərdiniz?**

- Azərbaycanın gözəl, füsunkar təbiətinin qayğısını çəksinlər, onun flora və faunasını qorumaqda bizə dəstək olsunlar, gələcək nəsillərin ekoloji problemlərlə üzləşməməsi üçün bu gün nazirliyin həyata keçirdiyi qabaqlayıcı tədbirlərdə fəal iştirak etsinlər. Ekoloji şüurun kiçik yaşlarda formalaşması üçün valideynlərin, təhsil müəssisələrinin üzərinə də məsuliyyət düşür. Bu baxımdan ətraf mühitin mühafizəsində vətəndaşlarımızı hamılıqla səy göstərməyə və həmrəy olmağa səsləyirəm.

# “Made in Azerbaijan 2019” müsabiqəsinin qalibləri müəyyənləşib



UNEC-də “Made in Azerbaijan 2019” biznes-ideya müsabiqəsinin final mərhələsi keçirilib.

Azərbaycan Respublikası Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, “Kapital Bank” ASC və UNEC-in birgə təşkilatçılığı ilə reallaşan müsabiqə Prezident İlham Əliyevin “Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 18 yanvar tarixli Sərəncamının icrasından irəli gələn vəzifələr çərçivəsində, eləcə də tələbələr arasında sahibkarlıq fəaliyyətinin təbliği məqsədilə təşkil edilib.

UNEC-dən AZƏRTAC-a verilən məlumata görə, “Made in Azerbaijan 2019” biznes-ideya müsabiqəsinə respublikanın universitetlərindən 40 layihə təqdim olunub. Biznes-ideyalar hazırlanarkən onların müvafiq Sərəncama və müsabiqənin missiyasına uyğunluğu, məhsul və xidmətin innovativliyi, texnoloji yeniliyi, layihənin daxili bazarda tətbiqinin reallığı, bazar və rəqabət imkanları, biznes modeli nəzərə alınıb. Ekspert şurası təqdim edilən biznes-ideyaları dəyərləndirib və 5 layihə finala vəsiqə qazanıb.

Finala vəsiqə qazanan “ViewGo”, “Oyuncaqçı”, “Kitablı”, “One click-One hand” və “Bio Bone” layihələrinin ideya müəllifləri UNEC, Bakı Dövlət Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə Dövlət Universiteti və Xəzər Universitetinin tələbələridir.

Finalda çıxış edən komandaların təqdimatlarından sonra münsiflər heyəti biznes-ideyaların tətbiqinin mümkünlüyü, məhsulun və ya xidmətin brendləşmə perspektivi, investisiya cəlbediciliyi, təqdimatı, sualların cavablandırılması, orijinal və kreativ yanaşmaya görə qiymətləndirib.

Münsiflər heyətinin qərarı ilə “Kitablı” biznes-ideyası qalib olub. Layihənin məqsədi elektron vəsaitləri bir portlada toplamaq, müəyyən fənlər üzrə izahlı videobazaya sahib olmaq, tələbələrin çətinlik çəkdiyi testlərin müəllimlər tərəfindən izahlarını təqdim etməkdən ibarətdir. II yerə “ViewGo”, III yerə isə “Oyuncaqçı” biznes ideyası layiq görülüb.

Qaliblər müsabiqənin sponsoru “Kapital Bank” ASC tərəfindən mükafat qazanıb. Belə ki, I yerin sahibi 2000 manat, II yer 1500 manat, III yer 1000 manat mükafata sahib olub. Qalib komandalara, həmçinin Gənclər və İdman Nazirliyi tərəfindən dəyərli hədiyyələr təqdim olunub.

# Azərbaycanda fəaliyyət göstərən dini icmaların rəhbərləri və nümayəndələri ilə görüş olub



“Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyinin İdarə Heyətinin üzvləri ölkəmizdə fəaliyyət göstərən dini icmaların rəhbərləri və nümayəndələri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, İctimai Birliyin İdarə Heyətinin sədri Tural Gəncəliyev dünyada baş verən xoşagəlməz hadisələrin fonunda Azərbaycandakı sabitlikdən, multikultural və tolerant mühitdən danışıb.

İcma rəhbəri Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin ağır nəticələrindən söhbət açıb. Bildirib ki, hələ işğaldan əvvəl Dağlıq Qarabağ Muxtar Vilayətində müxtəlif dini icmaların nümayəndələri mehriban şəkildə yaşayıblar. **“Ermənilər 1992-ci ildə Şuşa şəhərini işğal etdikdən sonra oradakı rus-pravoslav kilsəsini erməni kilsəsinə çeviriblər. Digər tərəfdən, onlar Şuşadakı tarixi “Mamayi” məscidindən kilsə kimi istifadə edərək orada dini ayinlər icra edirlər. Bundan əlavə, xristian-katolik kilsələri də erməniləşdirilib. Ermənistan dünyada özünü “birinci xristian ölkəsi” kimi tanıtmağa çalışır. Özünü belə hesab edən ölkəyə məscidləri, kilsələri dağıtmaq yaraşarmı?!”**, - deyə T.Gəncəliyev vurğulayıb. İctimai Birliyin sədri qeyd edib ki, Azərbaycan müxtəlif dini icmalara, o cümlədən ermənilərə aid abidələri qoruyub saxladığı halda, ermənilər işğal altında olan ərazilərimizdə xalqımıza aid qədim məscidləri, qəbiristanlıqları, ziyarətgahları dağıdırlar. O, dini icma rəhbərlərini ermənilərin bu vandalizm aktlarına səssiz qalmamağa çağırıb.

Rus Pravoslav Kilsəsi Bakı və Xəzəryanı Yeparxiyasının nümayəndəsi Konstantin Pominov Qarabağın Azərbaycan torpağı olduğunu, ermənilərin ərazi iddialarının əsasının olmadığını bildirib.

Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının keşişi Jozef Marek Azərbaycanı müxtəlif dini icmaların birgə və mehriban yaşadıqları ölkə kimi xarakterizə edib. O, ermənilərin Azərbaycan torpaqlarında törətdiyi vandalizm aktını pisləyib, dini məbədlərə hər hansı müdaxilənin yolverilməz olduğunu vurğulayıb.

Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili isə ermənilərin dini məbədləri özününküləşdirmək istəyindən söz açıb. O qeyd edib ki, ermənilər hər zaman dini-mədəni ibadətgahların mahiyyətini dəyişməyə cəhd ediblər.

Görüş müzakirələrlə başa çatıb.

# “Nar” 120-dən artıq yeni baza stansiyasını istifadəyə verib




Ölkənin ən gənc mobil operatoru olan “Nar”, yüksəkkeyfiyyətli 4G şəbəkəsini bütün ölkə ərazisində genişləndirməyə davam edir. Son 5 ayda mobil operator 20-dən artıq 3G, 95 4G texnologiyası ilə təmin olunmuş mobil baza stansiyasını istifadəyə verib. Bununla da, “Nar” 4G baza stansiyalarının sayı 1800-ü, 3G baza stansiyalarının sayı isə 2670-i ötüb.

Qeyd edək ki, mobil operator ölkə boyu yeni baza stansiyaları quraşdırmaqla yanaşı, əvvəl quraşdırdığı baza stansiyalarını daim yeniləyir. Aparılan şəbəkə təkmilləşmə işlərinin nəticəsi olaraq, 45-dən artıq 4G baza stansiyasında avadanlıqlar yenilənib. Bundan başqa, mobil operator baza stansiyalarının şəbəkə tutumunu da genişləndirib.

Bölgələrə xüsusi diqqətilə seçilən “Nar” 4G xidmətini təkcə Bakı və Abşeron ərazisində deyil, regionlarda, şəhər və rayon mərkəzlərində də təqdim edir. Hazırda 47-dən çox bölgə mərkəzi 4G şəbəkəsi ilə təmin edilib. “Nar” Azərbaycanın ən ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin etməkdədir. Mobil operatorun 4G istifadəçilərinin 72%-i paytaxt Bakının, 28%-i isə regionların payına düşür.

Qeyd edək ki, “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 4G keyfiyyəti ilə yanaşı, “Nar”-ın təklif etdiyi sərfəli qiymətlər abunəçilərin mobil internetdən daha çox istifadəsinə şərait yaradır.

Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

# Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistan XİN-in Arsenalın erməni futbolçusunun Bakıya səfər etməməsi ilə bağlı açıqlamasına münasibət bildirib

Ermənistan XİN mətbuat katibi Bakıda keçiriləcək UEFA Avropa Liqası final oyunu və Arsenalın oyunçusu H.Mxitaryanın Bakıya səfər etməməsinə dair açıqlama ilə çıxış edib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı sualı cavablandıran Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva deyib: **“İlk növbədə, vurğulamaq istərdim ki, Azərbaycan tərəfindən bu il mayın 29-da UEFA-nın Avropa Liqasının Bakıda keçiriləcək final oyununda iştirak edəcək bütün oyunçuların, o cümlədən Arsenal futbol klubunun oyunçusu H.Mxitaryanın, eləcə də bütün pərəstişkarların təhlükəsizliyinin tam şəkildə təmin olunacağı barədə məlumat verilib.**

**Şəxsən XİN-in mətbuat katibi olaraq mən bu xüsusda ünvanlanan suallara cavab olaraq, Azərbaycanın idmanla siyasəti eyniləşdirmədiyini dəfələrlə qeyd etmişəm. Azərbaycan ilk dəfə deyil ki, mötəbər idman yarışlarına ev sahibliyi edir və paytaxtımızda indiyədək keçirilən çoxsaylı idman yarışlarında erməni əsilli idmançılar da iştirak ediblər.**

**Ermənistan XİN-in Arsenal futbol klubunun erməni əsilli oyunçusunun Bakıya səfər etməməsi ilə bağlı açıqlaması, bu ölkənin daxili siyasi problemləri səbəbindən idmanı siyasət alətinə çevirmək cəhdlərindən xəbər verir. Ermənistan XİN-in belə bir oyunda iştirak etməsi yalnız təəssüf doğurur.**

**Əfsuslar olsun ki, bu addım Ermənistanın, Minsk Qrupunun həmsədrlərinin bəyanatlarında qeyd edildiyi kimi, xalqların sülhə hazırlanmasına hazır olmadığını aydın şəkildə nümayiş etdirdi. Təəssüf ki, Ermənistan Arsenalın erməni əsilli oyunçusunu öz təxribatçı məqsədləri üçün istifadə edir. Bu, həm də onu nümayiş etdirdi ki, birinci növbədə Ermənistan xalqının sülhə hazırlanmağa ehtiyacı var. Ağlasığmaz və gülüncdür ki, Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirən, monoetnik ölkə olan Ermənistan Azərbaycanı rasizmdə ittiham edir. Azərbaycanda müxtəlif dinlərin və etnik qrupların sülh və tolerantlıq mühitində birgə yaşayışı bütün dünyaya yaxşı bəllidir.**

**UEFA-nın Avropa Liqasının final oyununun Bakıda yüksək səviyyədə təşkili, ölkəmizə səfər edən əcnəbilərin (istər futbol oyunçuları, istərsə də pərəstişkarlar olsun) Azərbaycandakı real vəziyyətlə yerindəcə tanış olmaları Ermənistan XİN-in əsassız iddialarının ən gözəl cavabı olacaq”.**

# Ermənistanda yenidən çevriliş ola bilər

## *Rəqiblərinin fəallaşması Nikol Paşinyanı qorxuya salıb*



Bütün sahələrdə geriliyin, xaosun hökm sürdüyü işğalçı Ermənistanda son günlər gərginlik daha da artıb. Xarici və yerli mətbuatın yazdığına görə, 1 il əvvəl hakimiyyəti ələ keçirən Nikol Paşinyan və onun hibrid komandası Ermənistandakı vəziyyətə nəzarəti hər an itirə bilər. Ötən ildən fərqli olaraq getdikcə əhali arasında nüfuzdan düşən baş nazir vəziyyətdən çıxmaq, o cümlədən Dağlıq Qarabağdan gələn ermənilərin təzyiqi qarşısında davam gətirmək üçün müxtəlif yollara baş vurur. Lakin onun addımları işğalçı ölkədə etirazla qarşılanır.

Belə ki, məhkəmə-hüquq sistemində vəziyyətin müzakirəsi üçün fövqəladə iclas keçirən Ermənistan İctimai Şurasının üzvləri N.Paşinyanın respublikada bütün məhkəmə binalarını mühasirəyə almaq çağırışına etiraz ediblər. Şuranın sədri Vazgen Manukyan baş nazirin çağırışını və sonrakı fikirlərini tənqid etməkdən çəkinməyib: **“Yaranan vəziyyət ölkəmiz üçün çox təhlükəlidir. Bütün dünyada məhkəmə sistemi qanunlara xidmət edir, icraedici və qanunverici hakimiyyətin müdaxiləsindən, xalqın böyük və ya kiçik kütlələrinin təzyiqindən asılı olmayaraq, məhkəmə yalnız qanunu əsas götürməlidir. Məhkəmə qərarları ilə razılaşmadıqda isə şikayət mexanizmləri var”.**

V.Manukyanı narahat edən əsas məqam isə baş nazir N.Paşinyanın Dağlıq Qarabağ erməniləri ilə Ermənistan hakimiyyəti arasındakı münasibətlərlə bağlı çıxışı olub. O, N.Paşinyanın “Qarabağ erməniləri işğal edilmiş ərazilərdə təxribat törətməklə məsuliyyəti Ermənistan hökumətinin üzərinə qoymaq planı hazırladıqları” fikrinin təhlükəli olduğunu bəyan edub. Eyni zamanda V.Manukyan 2016-cı ilin Aprel döyüşlərində Ermənistanın məğlubiyyətinin səbəblərini araşdırmaq üçün parlamentdə istintaq komissiyası yaradılmasını təhlükəli və zərərli niyyət olaraq qiymətləndirib.

Bütün etirazlara və mövcud gərgin vəziyyətə baxmayaraq, “Mənim addımım” fraksiyasının rəhbəri Lilit Makunts ən qısa müddətdə istintaq komissiyasının yaradılacağını bəyan edib. Onun sözlərinə görə, bu günlərdə parlamentin fövqəladə iclası keçiriləcək. Komissiyanın formatına gəldikdə isə, L.Makunts qeyd edib ki, Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyası bu məsələ ilə məşğul olacaq.

Ekspertlərin qənaətinə görə, N.Paşinyanın belə bir komissiya yaratmaq təşəbbüsü Qarabağ klanına qarşı əks-hücum aktıdır. Bunun nəticəsində Aprel döyüşləri zamanı Ermənistan prezidenti, müdafiə naziri olmuş və Dağlıq Qarabağdakı oyuncaq rejimə rəhbərlik etmiş şəxslərin, o cümlədən Serj Sarkisyanın, Seyran Ohanyanın və Bako Sahakyanın avtomatik olaraq, cinayət məsuliyyətinə cəlb olunması mümkündür.

Ermənistan mətbuatında yer alan daha bir məlumata görə isə hakimiyyətdə təmsil olunanlar arasında fikir ayrılığı mövcuddur. “İrates” qəzeti yazır ki, onun hökumətində və parlamentdə təmsil olunanların bir çoxu N.Paşinyanın hərəkətləri və ifadələri ilə razı deyil, məhkəmələrə “hücum” aksiyası da bunu aydın şəkildə ortaya qoydu. “Jamanak” qəzeti isə yazır ki, baş verən son hadisələrdən nəticə çıxarmağa məcbur qalan N.Paşinyan gələn ay hökumətin tərkibində ciddi kadr dəyişikliyinə gedəcək. Artıq N.Paşinyan ictimaiyyətlə əlaqədar məsələlər üzrə müşaviri Qriqor Muradyanı vəzifəsindən azad edib.

Bu arada erməni mediasında yayılan daha bir məlumat vəziyyətin zənn edildiyindən də qəliz olmasından xəbər verir. “Past” qəzeti yazır ki, N.Paşinyan ötən bazar, demək olar bütün günü müdafiə naziri David Tonoyan və baş qərargah rəisi Artak Davtyanla bir neçə qapalı görüş keçirib. Bəzi məlumatlara görə Paşinyanın bu narahatlığı heç də səbəbsiz deyil. Belə ki, rəqiblərinin ona qarşı bütün cəbhəboyu hücuma keçməsi Ermənistanda növbəti dəfə çevriliş ola biləcəyi təhlükəsini yaradıb.

**Qaşqay ZİYƏDDİNOĞLU**

# Reneqatların, zombilərin ümidinə qalan Əli Kərimlinin miskin sonu...

## *Yaxud AXCP sədri “mühacirlər”in qayıdıb gəlməsindən və ortada tək qalacağından narahatlıq keçirdiyi üçün artıq siyasi etikanın bütün mümkün sədlərini aşır*



Siyasi riyakarlığı özlərinə peşə seçmiş “beşinci kolon” nümayəndələri Azərbaycan dövlətinin maraqlarına xəyanət etməklə bundan dividend qazanmaq niyyətindədirlər. Anti-azərbaycançı mərkəzlərlə işbirliyində olan radikal ünsürlər ölkəmizin əleyhinə yalan təbliğatlar aparan mərkəzlərin sifarişləri əsasında şər-böhtanlar yaymağa çalışır, hətta siyasi etika qaydalarını belə gözləmirlər. Azərbaycan cəmiyyətində heç bir hörməti və siyasi elektoratı olmayan, yalnız sosial şəbəkələrdə yalançı trollar vasitəsilə özündən “müxalifət partiyası” düzəldən belələri qarşıdurmalar yaratmağa formatlanıblar ki, bunun ən bariz nümunəsi də AXCP və onun sədri Əli Kərimlidir. Vurğulanmalıdır ki, Ə.Kərimli Azərbaycan cəmiyyətində ziddiyyətlərin və qütbləşmənin olmasını arzu edən bir şəxs kimi bütün siyasi fəaliyyətini cəmiyyətdə qarşıdurma yaratmaq üzərindən qurub. Bunu son dövrlərdə onun “mühacir”lərlə bağlı tutduğu mövqe bir daha təsdiqləyir.

Belə ki, son dövrlərdə vaxtilə radikal mövqe tutmuş bəzi şəxslərin öz səhvlərini etiraf etməsi və Azərbaycan dövlətindən və xalqımızdan üzr istəməsi Ə.Kərimlinin narahatlığına səbəb olub. Ümumiyyətlə, “mühacirlərə açılım məsələsi” gündəmə gələn kimi Ə.Kərimli qondarma nümunələrlə sübut etməyə çalışır ki, bu, belə deyil. Yəni qarşılıqlı etimadın daha da gücləndirilməsinə mane olmağa çalışan, öz yalanlarını işə salaraq yenidən ara qarışdırmağa niyyətlənən Ə.Kərimli qorxur ki, “mühacir”lər qayıdıb gəlsələr, tənqidçilərin sayı azalar və o, ortada tək qalar. Bu isə Ə.Kərimlinin çirkin niyyətlərinə uyğun gəlmir. Çünki ermənipərəst mərkəzlərlə əlaqəli şəkildə işləyən Ə.Kərimli öz siyasi avantürasından həm də “biznes” kimi istifadə edir. Məsələn, adı hər zaman qondarma “siyasi məhbus” alverində hallanan Ə.Kərimli bu gəlir mənbəyinin əldən çıxacağından çəkinir. Konkret cinayətdə günahlandırılan, etdiyi əməlin cəzasını çəkən şəxsləri “siyasi məhbus” adlandırıb pul qazanan Ə.Kərimlini nifrət hissi o qədər bürüyüb ki, məşhur qatil Çikatilo dirilib hakimiyyəti tənqid etsə, onu da “siyasi məhbus” elan edər. Bu isə bir daha təsdiqləyir ki, Əli Kərimli artıq siyasi etikanın bütün mümkün sədlərini aşıb və özünü manyak kimi aparır. O, “islah olunmuş mühacir” deyə təhqir etdiyi şəxsləri fərqli fikrinə görə hədəfə alır. Bu isə bir daha onun dözümsüzlüyünü ortaya qoyur. Azərbaycan hakimiyyətini guya siyasi dözümsüzlükdə ittiham edən Ə.Kərimlinin özünün ətrafında bir nəfər fərqli düşünən insan yoxdur. Hətta partiya daxilindəki idarəçiliyə etiraz edən gəncləri belə AXCP-dən uzaqlaşdıran Ə.Kərimli onun despot idarəçiliyinə qarşı çıxanları mənəvi terrora məruz qoyur. Bu səbəbdəndir ki, Elçibəyin dövründə olan AXCP funksionerlərindən heç biri onun yanında qalmayıb. Bu boşluğu isə reneqatlar, heç bir əxlaqı olmayan ünsürlər və zombilər doldurublar.

Bəli, vaxtilə radikal mövqedə olan insanların öz səhvlərini anlamaları və etiraf etmələri onların artıq rasional düşünməyə başladıqlarını göstərir. Əslində bu, çox yaxşı bir tendensiyanın başlanğıcıdır. Ancaq Əli Kərimlinin fəaliyyəti, görünür, bu məqsədlərə hesablanmayıb. Ə.Kərimlinin fəaliyyəti Azərbaycanda qarşıdurma yaratmaq istəyən anti-azərbaycançıların fəaliyyətləri ilə üst-üstə düşür. İnsanların səhv yoldan dönmələri isə onu ciddi şəkildə narahat edir. Ona görə də, dünənə qədər dost dediyi şəxsləri “islah olunmuş” adlandırır.

Göründüyü kimi, radikal ünsürlərin “boş sözlərdən”, xarici ermənipərəstlərin sifarişləri əsasında apardıqları çirkin fəaliyyətdən ibarət “müxalifətçiliyi” artıq tam şəkildə ifşa olunub. “Müxalifətçiliyi” yalnız ermənipərəst dairələrdən pul almaqla Azərbaycan dövlətinə və xalqına qarşı şər-böhtan kampaniyası aparmaq kimi dərk edən bu azlığın xəyanətkar siması artıq bütün cəmiyyətimiz tərəfindən tanınır.

**Pərviz SADAYOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF

# Regionlarda turizmin inkişafı istiqamətində layihələr həyata keçirilir

*5 mərhələdən ibarət olan "Böyük Basqal" konsepsiyası təqdim olunub, Şəki şəhərinin yeni konsepsiyası üzərində iş isə başa çatmaq üzrədir*




Son illərdə ölkəmizdə turizmin inkişafı ilə bağlı genişmiqyaslı işlərin görülməsi, böyükhəcmli layihələrin həyata keçirilməsi, Azərbaycanın ayrı-ayrı bölgələrində müasir tələblərə cavab verən istirahət mərkəzlərinin, hotellərin inşası, yol-nəqliyyat infrastrukturunun yaradılması həm xarici, həm də yerli turistlərin bölgələrimizə marağını artırıb. Bunun nəticəsində ötən il Azərbaycana dünyanın müxtəlif ölkələrindən 2,8 milyondan çox turist gəlib, bu il turistlərin sayının daha da artması gözlənilir. Əldə edilən nəticələr və ölkəmizə gələn turistlərin sayının ildən-ilə artması da onu göstərir ki, bu istiqamətdə dövlət və özəl sektor tərəfindən atılan addımlar öz səmərəsini verir.

Qeyd edək ki, Azərbaycanın regionlarında turizmin inkişafına dövlət dəstəyinin davam etdirilməsi nəticəsində son illərdə tarixi və mədəni abidələrlə zəngin olan yerlərdə turistlərin rahat gediş-gəlişinin, istirahətinin lazımi şəkildə təşkili üçün yeni infrastrukturun yaradılması sahəsində xeyli işlər görülüb. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu sahə ilə bağlı konkret tapşırıqlar verib və məqsədlər müəyyənləşdirib.

Dövlət başçısı sözügedən iclasdakı çıxışında tarixi yerlərimizin yenidən qurulması, bərpası istiqamətində çox böyük işlər görüldüyünü xatırladaraq, "Yanardağ" qoruğunun yenidən fəaliyyətə başlamasından, İsmayıllı rayonunun Lahıc kəndi kimi, tarixi kəndlərə daha rahat və daha təhlükəsiz gediş-gəlişinin təmin olunmasından, həmçinin həmin rayonun Basqal kəndinə turistlərin cəlb olunması məqsədilə görüləcək işlərdən bəhs edib: **"Mənim Sərəncamımla tarixi Basqal kəndini abadlaşdırmaq və turistləri cəlb etmək üçün çox böyük layihələrin icra olunması məqsədilə xüsusi proqram hazırlanır. Çünki Basqal da qədim tarixi kənddir, qədim yaşayış yeridir, yaşayış məskənidir. Həm Basqalda yaşayan vətəndaşlar üçün, həm də turistləri oraya cəlb etmək üçün çox gözəl şərait yaradılacaq".**

Yeri gəlmişkən, məhz Prezidentin Sərəncamından irəli gələn proqrama uyğun olaraq bu yaxınlarda İsmayıllı şəhərində "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yeni inkişaf konsepsiyasının təqdimatı keçirilib. Təqdimat zamanı Böyük İpək Yolunun üzərində yerləşən Basqalın özünəməxsus infrastrukturu, təbiəti, tarixi, maddi və qeyri-maddi mədəni irsi ilə ölkənin əsas turizm məkanlarından biri kimi əhəmiyyəti qeyd edilib. Eyni zamanda, Azərbaycanda turizmin inkişafında, mədəni-tarixi irsin qorunmasında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın xüsusi diqqət və qayğısı qeyd olunub.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev təqdimat zamanı Basqalla yanaşı, Agentliyin tabeliyində olan digər 6 qoruqda da bərpa layihələrinin hazırlandığını, may ayının sonunadək "Yanardağ" qoruğunda yenidənqurma işlərinin başa çatdırılacağını və ictimaiyyətə təqdim olunacağını vurğulayıb. Bundan əlavə, F.Nağıyev bildirib ki, Şəki şəhərinin yeni konsepsiyası üzərində iş başa çatmaq üzrədir, eləcə də Xınalığın və palçıq vulkanlarının turistlər üçün daha cəlbedici məkana çevrilməsi üçün hazırlanan layihələrin üzərində də iş gedir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 3 oktyabr tarixli Sərəncamına əsasən, 2018-2023-cü illəri əhatə edəcək 5 illik bərpa planının əsas məqsədi Basqalın tarixiliyini özünə qaytarmaq və yerli əhalinin rifahını yaxşılaşdırmaqla turizmin inkişafına nail olmaqdır. Konsepsiyanın hazırlanması prosesində ilkin olaraq qoruq ərazisində yaranmış vəziyyətə dair arayış, daha sonra qoruğun uzunmüddətli qorunması, konservasiyası, bərpası ilə bağlı fəaliyyət proqramının layihələri tərtib edilib.

"Böyük Basqal" konsepsiyası birinci mərhələdə Basqal və onu əhatə 10 kənd arasında mövcud yolların, ikinci mərhələdə tarixi binaların, daş yolların, fasadların, tarixi memarlıq üslubunun bərpasını, yerüstü qaz və işıq xətlərinin yenilənərək yerin altına salınmasını, kommunikasiya və su sisteminin yenilənməsini əhatə edəcək. Layihənin üçüncü mərhələsində kəlağayı istehsalının canlandırılması və turizm məhsuluna çevrilməsi məqsədilə kəlağayı sexinin bərpası və turistlərə tanıdılması, həmçinin sənətkarlara dəstək göstərilməsi nəzərdə tutulub.

4-cü mərhələdə isə əsas məqsəd mərkəzi meydanın bərpası və əsas turizm mərkəzinə, habelə yerli əhalinin, xüsusilə də sənətkarların öz məhsullarını sata biləcəyi məkana çevirməkdir. Layihənin 5-ci mərhələsi infrastrukturun qurulması, tullantıların idarə edilməsi sisteminin yaradılması, "Kürəbənd" adlanan tarixi kanalizasiya və drenaj sisteminin bərpası, bulaqların təmiri, qəsəbədə bankomat və ödəniş terminallarının quraşdırılması, icma üçün mərasim evinin, uşaq meydançasının inşası kimi tədbirlər planını əhatə edəcək.

Xatırladaq ki, Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, ölkə əhəmiyyətli yollarla yanaşı, yeni kənd yollarının inşası sahəsində mühüm layihələrin icrası uğurla davam edir. Hazırda Xaçmazda turizm əhəmiyyətli Xudat-Nabran avtomobil yolunun asfaltlanması və Xaçmaz-Niyazoba-Əbilyataq-Qarğalıq avtomobil yolunun yenidən qurulması işləri də sürətlə davam etdirilir.

Yeri gəlmişkən, qeyd edək ki, Xaçmaz Turizm İnformasiya Mərkəzinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "Turizm və səyahətlər" sərgisi keçirilib. Xaçmaz Olimpiya İdman Kompleksində təşkil olunan "Turizm və səyahətlər" sərgisində 30-a yaxın turizm şirkəti, hotel və istehsalat sahələrinin stendləri təqdim olunub. Sərginin açılış mərasimində ölkəmizdə turizmə göstərilən dövlət dəstəyindən, son illərdə bu sahədə görülmüş işlərdən danışılıb, ziyarətçilərə regionun turizm potensialı barədə ətraflı məlumat verilib.

İki gün davam edən sərgidə regiona daxil olan rayonların görməli yerləri, turizm məkanları, yeni tikilmiş mədəniyyət müəssisələri, tarixi abidələri haqqında fotostendlər nümayiş etdirilib, rayonların turizm xəritəsini özündə əks etdirən, həmçinin regionda fəaliyyət göstərən bir sıra hotellərin bukletləri sərgilənib və gələn qonaqlara paylanılıb.

Yay turizm mövsümünün başlaması ərəfəsində Dövlət Miqrasiya Xidmətinin (DMX) Şəki regional miqrasiya idarəsi tərəfindən də maarifləndirmə tədbiri keçirilib. Tədbirdə Şəki regional miqrasiya idarəsinin xidməti ərazisində yerləşən mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazasının rəhbərləri iştirak ediblər. Maarifləndirmə tədbirində miqrasiya qanunvericiliyi, əcnəbilərin olduğu yer üzrə qeydiyyata alınma qaydaları, Azərbaycan Respublikasında əmək fəaliyyəti, işə cəlbolunma qaydaları, həmçinin "MİGAZ" mobil tətbiqinin istifadəsi və tətbiqindəki yeniliklər barədə məlumat verilib.

Regionlarda turizmin təşviqi üzrə daha bir kütləvi tədbir təşkil olunub. Lənkəranda "Dayanıqlı turizmin inkişafı və Azərbaycanın kəndlərində yerli sənətkarlığa dəstək" layihəsi çərçivəsində təşkil edilən yay ekoloji turizm düşərgəsində Azərbaycan Turizm və Menecment Universitetinin və Finlandiyanın Kajaani Tətbiqi Elmlər Universitetinin tələbələri iştirak ediblər. Düşərgənin təşkilində əsas məqsədlərə Finlandiya və Azərbaycanın turizm və hotel menecmenti sahəsində ixtisaslaşan tələbələr arasında ekoloji turizm sahəsində marketinq potensialının təhlili, Lənkəran regionunun mədəni irsi, tarixi, ekoloji resurslarının öyrənilməsi, birgə ekoloji turlarda iştirak və Lənkəran-Astara regionu üçün tur paketin hazırlanması və gələcəkdə finlandiyalı turistlərin tur paket vasitəsi ilə ölkəmizə cəlb olunması daxildir.

Yay düşərgəsində iştirak edən universitet tələbələri öz təcrübələrini genişləndirmək məqsədilə Lənkəran regionunun ekoturizm, müxtəlif etnik azlıqların məskunlaşdığı, sahibkarlıqla məşğul olduqları ərazilərə və muzeylərə səfər ediblər. Qeyd edək ki, layihə çərçivəsində respublikanın aparıcı turizm sahəsində çalışan mütəxəssislərin iştirakı ilə Azərbaycanda ekoloji turizmin inkişafına dair marketinq strategiyası hazırlanıb müvafiq dövlət qurumlarına təqdim olunacaq. "Dayanıqlı turizmin inkişafı və Azərbaycanın kəndlərində yerli sənətkarlığa dəstək" layihəsi çərçivəsində il ərzində turizm sahəsində çalışan qadın sahibkarlara dəstək məqsədilə biznesin təşkili və müasir marketinq strategiyalarına əsaslanan, regional və beynəlxalq əməkdaşlığın inkişafı üzrə təlimlər təşkil ediləcək.

Onu da qeyd etmək yerinə düşər ki, Dövlət Turizm Agentliyi Azərbaycanın turizm potensialının Avropada təbliği və ölkəmizə turistlərin cəlb olunması üçün fürsətlərdən biri olan UEFA-nın Avropa Liqasının final oyununun Azərbaycanda keçirilməsi ilə bağlı hazırlıqları da davam etdirir. Agentlik mayın 29-da UEFA-nın Avropa Liqasının final oyununun Azərbaycanda keçirilməsi ilə bağlı ölkəyə gələcək xarici qonaqlar və turistlərin rahatlığı üçün digər dövlət orqanları ilə, xüsusilə Azərbaycan Hava Yolları (AZAL), Azərbaycan Futbol Federasiyaları Assosiasiyası ilə birlikdə fəaliyyət göstərəcək.

Agentlikdən bildirilib ki, AZAL tərəfindən mayın 29-30-da həyata keçiriləcək birbaşa London-Bakı-London uçuşlarından başqa, xarici azarkeşlərin oyunu izləməsi üçün 40-dan çox çarter reys təşkil olunacaq. Bundan başqa, AZAL-la klublar arasında əldə olunan razılığa əsasən əlavə çarter reyslərin də təşkil olunması istiqamətində danışıqlar aparılır.

Turistlərin ölkəyə gəlişi, yerləşdirilməsi və Azərbaycanda qalma müddəti ərzində təhlükəsizlik də daxil olmaqla digər bütün məqamlar dövlət və özəl biznesin təmsilçiləri tərəfindən diqqətlə düşünülüb. Yarışla əlaqəli olan bütün dövlət orqanları xüsusi əhəmiyyətə malik idman tədbirinin müvəffəqiyyətlə keçirilməsi üçün gücləndirilmiş iş rejimində çalışacaqlar.

**Qaşqay ZİYƏDDİNOĞLU**

# Vergilər Nazirliyi və Baş Prokurorluq birgə məlumat yayıb

*Vergilər Nazirliyinin Ərazi Vergilər idarələrinin dörd əməkdaşının vergi orqanlarında xidmətlərinə xitam verilib*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, korrupsiya və mənimsəmə hallarına qarşı mübarizənin aparılması ilə bağlı göstərişlərinə uyğun olaraq, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması və aşkarlanmış korrupsiya hüquqpozmalarına qarşı mübarizə çərçivəsində Vergilər Nazirliyi ilə Baş Prokurorluq tərəfindən birgə tədbirlərin görülməsi davam etdirilir.

Vergilər Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Vergilər Nazirliyindən bir sıra Ərazi Vergilər idarələrinin 2015-2018-ci illəri əhatə edən dövr üzrə fəaliyyətlərinin yoxlanılması zamanı aşkarlanan qanun pozuntularına dair Baş Prokurorluğa daxil olmuş materiallar Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Aparılmış araşdırmalarla 2 saylı Ərazi Vergilər Departamentinin İqtisadi təhlil və büdcə proqnozunun icrasına nəzarət şöbəsinin böyük dövlət vergi müfəttişi Mahir Əbdürrəhimovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək Xızı və Siyəzən rayonları üzrə maliyyə şöbələrindən daxil olmuş vergi və dövlət rüsumlarından tam və ya qismən olmaqla, ümumilikdə 511 min manat azaldaraq, həmin məbləğləri ayrı-ayrı vergi ödəyicilərinin şəxsi hesab vərəqələrinə qeyd etməklə sonunculardan nağd şəkildə alıb mənimsəməsinə əsaslı şübhələr yaranıb. Faktla bağlı Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

Bundan başqa, Ağdam Rayon Vergilər Şöbəsinin direktoru Valeh Qasımovun eyni qaydada rayon maliyyə idarəsindən daxil olmuş ödəniş sənədlərini (qəbzləri) saxtalaşdıraraq faktiki olaraq ödəniş olmadığı halda ayrı-ayrı vergi ödəyicilərinin şəxsi hesab vərəqələrinə ümumilikdə 412 min manat vəsait qeyd etməklə onlardan nağd şəkildə alıb mənimsəməsinə əsaslı şübhələr olduğundan material üzrə Cinayət Məcəlləsinin 179.3.2-ci və 308.2-ci maddələri ilə cinayət işi başlanıb.

Aparılmış araşdırmalarla, həmçinin 5 saylı Ərazi Vergilər İdarəsinin operativ vergi nəzarət şöbəsinin dövlət vergi müfəttişi Eldəniz Əzizov və həmin idarənin səyyar vergi yoxlamaları şöbəsinin böyük dövlət vergi müfəttişi Elnur Mənsimovun eyni qaydada müvafiq maliyyə idarələrindən daxil olmuş ödəniş sənədlərinin (qəbzlərin) işlənilməsi zamanı 38 min manat vəsaiti faktiki ödəniş təyinatından yayındırmaqla ayrı-ayrı vergi ödəyicilərindən nağd şəkildə alınmış və büdcəyə ödənilməmiş vəsait əvəzinə onların şəxsi hesab vərəqələrinə vergi ödənişi kimi qeydiyyatını aparmaqla vergi ödəyicilərindən vergi ödənişi kimi nağd şəkildə alınmış həmin məbləği mənimsəməsinə əsaslı şübhələr olduğundan faktla bağlı Cinayət Məcəlləsinin 179.2.3-cü, 179.2.4-cü və 308.1-ci maddələri ilə cinayət işi başlanıb.

Bununla yanaşı, 13 saylı Ərazi Vergilər İdarəsinin kiçik sahibkarlıqla iş şöbəsinin vergi öhdəliklərinin icrasına nəzarət bölməsinin baş dövlət vergi müfəttişi Ziya Paşayevin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək 2017-2018-ci illərdə Qax Rayon Maliyyə İdarəsindən təhvil aldığı vergi və rüsumlarla bağlı 47 min manat dəyərində ödəniş qəbzlərini skan edərək oraya əvvəldən tanıdığı bəzi vergi ödəyicilərinin sadələşdirilmiş vergi kodu, ödəyicinin adı, VÖEN və vergi məbləği haqda yenidən qeydiyyat apararaq rəsmi sənədi saxtalaşdırmasına əsaslı şübhələr olduğundan faktla bağlı Cinayət Məcəlləsinin 308.2-ci və 313-cü maddələri ilə cinayət işi başlanıb.

Vergilər Nazirliyi üzrə əmrlərlə xidməti fəaliyyətlərinin icrası zamanı yol verdikləri qanunazidd əməllərə görə müvafiq Ərazi Vergilər idarələrinin dörd əməkdaşının vergi orqanlarında xidmətlərinə xitam verilib, dörd əməkdaş isə müvəqqəti olaraq tutduqları vəzifədən kənar ediliblər.

Hazırda cinayət işləri üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Vergi sahəsində yol verilmiş qanun pozuntularının qarşısının alınması və aşkarlanan korrupsiya hüquqpozmalarına qarşı Vergilər Nazirliyi ilə Baş Prokurorluq tərəfindən birgə ciddi tədbirlərin görülməsi bundan sonra da davam etdiriləcək.

# Bakcell qadınların məşğulluğunun artırılmasına dəstək göstərir

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti informasiya texnologiyaları vasitəsilə qadınların liderlik bacarığının artırılması istiqamətində layihəyə dəstək göstərir.



"Sabirabadda Qadınların Sosial İnkişafına Dəstək" İctimai Birliyi ilə birgə BMT-nin İnkişaf Proqramı çərçivəsində yaradılmış Salyan və Sabirabad Qadın Resurs Mərkəzlərində (QRM) həyata keçirilən layihənin məqsədi adıçəkilən rayonlarda qadınları İKT alətləri ilə tanış etmək, bu sahədə onların bilik və bacarıqlarını artırmaq və yeni texnologiyalar vasitəsilə qadınların liderlik bacarıqlarının inkişafına dəstək göstərməkdir. Layihə çərçivəsinə hər iki QRM-nin fəaliyyəti, qadınların uğur hekayələri və fərdi inkişafla bağlı məlumatları əks etdirən xüsusi İnternet portalı (www.azqrm.net) yaradılıb. Həmin portalda bacarıqların artırılması ilə bağlı vebinarlar yerləşdirilib. Bu portal vasitəsilə hər iki rayonun QRM üzvləri Mərkəzə gəlmədən məşğulluq və bizneslə məşğul olmaqla bağlı məlumat mübadiləsi apara biləcəklər.

Sabirabad və Salyan rayonlarında azqrm.net portalının təqdimatı, "Şəbəkələşmə" və "Məşğulluq, peşə və əlavə gəlir" mövzularında seminar keçirilib. Hər iki tədbirdə rayon mərkəzlərindən və kəndlərdən 25-ə yaxın qadın iştirak edib.

Bakcell şirkəti özünün Korporativ Sosial Məsuliyyət (KSM) proqramı çərçivəsində qadın məşğulluğunun və sahibkarlıq fəaliyyətinin inkişafına dəstək verir.

# Azercell-in dəstəyi ilə Quba məktəbliləri üçün kibertəhlükəsizlik mövzusunda təlimlər təşkil olunub



Kibertəhlükəsizlik və internetdən təhlükəsiz istifadə mövzusunun mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alan "Azercell Telekom" MMC bu istiqamətdə təlimlərin keçirilməsini davam etdirir. Ölkəmizin müxtəlif bölgələrində "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" təlimlərini təşkil edən şirkət bu dəfə Quba şəhəri, H.Əliyev adına 1 N-li tam orta təshil məktəbində 6-9-cu sinif şagirdlərini, eləcə də onların müəllim və valideynlərini bir araya gətirib. 13-17 may tarixlərini əhatə edən təlimlərdə iştirakçılara internetdə olan təhlükələr haqqında nəzəri və praktiki məlumatlar, məktəbdənkənar təhdidlərin tanınması, onlarla mübarizə yolları haqqında məsləhətlər verilib. "Azərbaycan Müəllim İnkişafı Mərkəzi" tərəfindən keçirilən və 137 nəfərin iştirakı ilə baş tutan təlimlərdə sosial şəbəkələrdən səmərəli istifadə ilə bağlı tövsiyələri, uşaqlar üçün yaradılmış resursların siyahılarını, uşaqlara, eləcə də böyüklərə internetdən təhlükəsiz istifadənin əsaslarını təlqin edən materiallar təqdim olunub. Bundan əlavə, təlimlərdə internetdəki təhlükəli oyunlar, ekstremizm çağırışları, insanların şəxsi və maliyyə məlumatlarının oğurlanması kimi hallarla mübarizə yollarından bəhs edilib, internet təhlükəsizliyi, təhlükəsiz ev mühiti, şagirdlərin üzləşə biləcəyi çətinliklər haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, virtual dünyada uşaqların təhlükəsizliyinin təmin edilməsi mövzusuna həssaslıqla yanaşan Azercell "Universal Müdafiə", "Android üçün müdafiə" və "Valideyn nəzarəti" xidmətlərinin də yer aldığı "Azercell Plus Təhlükəsizlik" proqramını istifadəyə verib. Bu proqram uşağın sosial şəbəkələrdə paylaşımlarını, dostlar siyahısındakı dəyişiklikləri izləməyə, onun qoşulduğu qruplardan xəbərdar olmağa, həmçinin yerini müəyyənləşdirməyə və onun üçün təhlükəsiz ərazi yaratmağa imkan verir.

## İTMİŞDİR

Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti tərəfindən Quliyeva İradə Vahab qızına verilmiş Bakı şəhəri Hövsan qəsəbəsi F.Bayramov PR, ev 28, mənzil 54 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universitetinin I kurs tələbəsi Məmmədova Nigar İlqar qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU